

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 07 - iyul 2020



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 07 - iyul 2020**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**



**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**


*”Qanunçuluq” jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*


© “Ədliyyə Nəşriyyat Evi”MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib ....4
“Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....6
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....7
Mehriban Əliyeva: “Hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında." ....8
Mehriban Əliyeva: "İnsan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram." ....9

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Ədliyyə Nazirliyində videokonfrans formatında kollegiya iclası keçirilib ....11
Ədliyyə naziri vətəndaşların videoqəbulunu keçirib ....14
Cinayət mühakimə icraatında innovasiyalar tətbiq olunur ....14
Avropa İttifaqının və diplomatik korpusun təmsilçiləri ilə videokonfrans formatında görüş ....16
Ədliyyə Nazirliyində Azərbaycan milli mətbuatının 145 illiyi münasibətilə KİV-lərlə onlayn görüş keçirilib ....17
Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində kollegiya iclası keçirilib ....19
Azərbaycan və Türkiyə Ədliyyə akademiyaları səmərəli əməkdaşlıq edirlər ....20
Ədliyyə işçiləri könüllü qanvermə aksiyasına qoşulublar ....21

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 02 iyun tarixli 126-VIQD nömrəli Qanunu ....22
"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 19 iyun tarixli 132-VIQD nömrəli Qanunu ....23
"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 143-VIQD nömrəli Qanunu ....24
“Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyul tarixli 1102 nömrəli Fərmanı ....25
"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyul tarixli 1106 nömrəli Fərmanı ....26
"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 23.4-cü maddəsinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.2-ci, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 8 və 15-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2020-ci il 6 iyul tarixli Qərarı ....27
“Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2020-ci il 24 iyul tarixli Qərarı ....32

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

**İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**





Altı ayın yekunları müzakirə olunmazdan əvvəl dövlətimizin başçısı Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş hadisələr haqqında ictimaiyyətə ətraflı məlumat verib, erməni silahlı qüvvələrinin Azərbaycan mövqelərini artilleriya atəşinə tutduqlarını və bunun nəticəsində hərbçilərimizin həlak olub, yaralandığını qeyd edib, bununla əlaqədar aidiyyəti tapşırıqlar verilərək görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusuna layiqli cavab verildiyini, onlara sarsıdıcı zərbələr endirildiyini vurğulayıb. Diqqətə çatdırıb ki, ermənilərin növbəti hərbi təxribatı nəticəsində bir neçə hərbçimiz, o cümlədən general Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar. Ali Baş Komandan şəhidlərimizin Vətənin müdafiəsi uğrunda qəhrəmanlıqlarından bəhs edib, onların ailə üzvlərinə, yaxınlarına başsağlığı verib, hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ölkə başçısı həmçinin, ermənilərin bu çirkin əməlindən sonra qisas əməliyyatının ikinci fazasının başladığını və düşmənə növbəti dəfə ağır zərbələr vurularaq onlarla erməni hərbçisinin məhv edildiyini, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsinin darmadağın edildiyini bildirib, Azərbaycan Ordusunun bir daha öz üstünlüyünü göstərdiyini qeyd edərək baş vermiş hərbi toqquşmanı növbəti şanlı qələbəmiz kimi dəyərləndirib.

Prezident İlham Əliyev Ermənistanın heç vaxt açıq döyüşdə qələbə qazana bilmədiyini, torpaqların itirilməsinin o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanəti olduğunu xatırladıb, həmin illərdə Azərbaycanda hakimiyyətə gəlməkdən ötrü ölkədə yaşanan xaos, anarxiyadan istifadə edərək erməni-

lərin torpaqlarımızı zəbt etdiklərini diqqətə çatdırıb.

Vurğulayıb ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi.

Ali Baş Komandan erməni hərbi təxribatının səbəblərinə toxunaraq bir çox məntiqli ehtimallar haqda Azərbaycan vətəndaşları ilə öz fikirlərini bölüşüb, həmin səbəblərin Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhranla, siyasi cəhətdən Ermənistanın özünü təcrid vəziyyəti ilə bağlı olmasını hesab edib, həmçinin Ermənistanın dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etməsini onların acizliyini, qorxaqlığını göstərdiyini bildirib.

Dövlət başçısı beynəlxalq aləmin bu hadisələrə reaksiyası məsələsinə toxunaraq beynəlxalq, o cümlədən parlamentlərarası təşkilatlardakı nümayəndələrin hər birinin təlimat alaraq təmsil olunduqları qurumların rəhbərlərinə hadisə ilə bağlı dolğun məlumat verdiyini diqqətə çatdırıb. Onu da qeyd edib ki, diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən, kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Ölkə rəhbəri bu sahədə Xarici İşlər Nazirliyinin fəaliyyətinə toxunaraq ölkəmizin xarici siyasət sahəsində işin səmərəliliyinin artırılmasının vacibliyini qeyd edib. Bildirib ki, biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq.

Prezident İlham Əliyev beynəlxalq təşkilatların reaksiyası ilə əlaqədar, ilk növbədə, qardaş Türkiyəyə və onun Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürünü bildirib. Qeyd edib ki, ilk saatlardan Türkiyənin dövlət başçısı və rəsmi qurumları bu məsələ ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə etdilər, açıqlamalar verdilər. Eyni zamanda, digər dost, qardaş ölkə Pakistanın birmənalı mövqe bildirərək, Azərbaycanın haqq işinə öz dəstəyini verdiyini, digər ölkələrin rəsmi nümayəndələrinin də Azərbaycanı dəstəklədiklərini, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının açıqlama verdiyini, İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanı dəstəkləyən bəyanatla çıxış etdiyini vurğulayıb.

Dövlətimizin başçısı ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələrin, hərbi qələbənin Azərbaycan ictimaiyyətində də ruh yüksəkliyi yaratdığını və xalqımızı coşdurduğunu qeyd edərək, bir qrup vətənpərvər insanın bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandanına öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına üz tutmasını - bu vətənpərvər addımı alqışlayıb və insanların vətənpərvər şüarlar səsləndirdiklərini söyləyib. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi.

Ölkə Prezidenti yürüşə qatılan insanların arasına daxil olan bəzi təxribatçı qruplar tərəfindən xuliqanlıq törədildiyini, ictimai asayişi pozmağa cəhd edildiyini, polisə müqavimət göstərdiyini qeyd edərək daxili işlər orqanları tərəfindən bu əməllərə qısa müddət ərzində son qoyulduğunu vurğulayıb, həmin təxribatçıların şəxsiyyətinin müəyyənləşdirilərək hamısının məsuliyyətə cəlb olunacağını, qanun çərçivəsində layiqli cəza veriləcəyini bəyan edib.

Eyni zamanda hüquq-mühafizə orqanlarına tapşırıb ki, onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa, hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir.

Ali Baş Komandan Azərbaycan Ordusunun verilən bütün tapşırıqları şərəflə yerinə yetirdiyini vurğulayaraq, vətənpərvər insanların orduda xidmət etmək istəklərini alqışlayıb, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etməklə öz arzularını ifadə etmələri üçün yol göstərib.

Sonra müşavirədə gündəlikdə duran məsələlər, o cümlədən qlobal pandemiyanın qarşısının alınması üzrə həyata keçirilən genişmiqyaslı tədbirlər, bu ilin və keçən ilin quraqlığı ilə əlaqədar bu istiqamətdə atılan addımlar, su təhlükəsizliyi məsələsinin həlli, habelə büdcənin icrası, bank sektorunda, sosial, iqtisadi sahədə, o cümlədən kölgə iqtisadiyyatına qarşı mü-

barizə və son müddət ərzində sahibkarlığın inkişafı ilə bağlı vəziyyət, kənd təsərrüfatı, gömrük sahəsində həyata keçirilən tədbirlər müzakirə olunub, məruzələr dinlənilib.

Prezident İlham Əliyev iclasa yekun vuraraq gömrük və vergi sahəsində aparılan ciddi islahatların real nəticələrinin göz qabağında olduğunu qeyd edib, dövlət gəlirləri sahəsində tam şəffaflığın təmin olunmasının vacibliyini vurğulayıb, bütövlükdə, ilin altı ayında görülmüş işləri müsbət qiymətləndirib. Onu da əlavə edib ki, ilin sonuna qədər qarşıda duran bütün vəzifələr icra edilməli, bölgədə gedən prosesləri və son hadisələri nəzərə alaraq hərbi xərclərimizə də yenidən baxılmalıdır.

Dövlət başçısı bu yaxınlarda BMT-nin "Dayanıqlı inkişaf indeksi" ilə bağlı yeni hesabatında Azərbaycanın keçən ilə nisbətən irəliləyərək 54-cü yerdə qərarlaşdığı vurğulayaraq bu göstəriciyə görə respublikamızın regionda lider olduğunu diqqətə çatdırıb, ölkəmizin bu ili də uğurla başa vuracağına əminliyini ifadə edib.

## Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra mətbuatımız yeni inkişaf mərhələsinə qədəm qoymuş, öz fəaliyyəti ilə müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, istiqlal ideyalarının yayılmasında, həmçinin belə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamışdır.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Hazırda həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən Azərbaycanda müasir dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edir.

Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal

informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır.

Azərbaycan Respublikasında milli mətbuat ənənələrinin qorunması və təbliğ edilməsi məqsədilə, kütləvi informasiya vasitələrinin ölkəmizin ictimai-siyasi həyatındakı yerini və müasir cəmiyyət quruculuğu prosesində rolunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan milli mətbuatının 145 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın:

2.1. koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2020-ci il*

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

İnsanlar arasında həmrəylik və qardaşlığın, humanizm və mərhəmətin rəmzi olan Qurban bayramı İslam dininin əsas bayramlarından biridir. Müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına qurbanlarla Allaha yaxınlığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Yüz illərdir ki, ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında İslam dininin müstəsna rolu olmuşdur.

Hər il ölkəmizdə keçirilən dini bayramlar mütərəqqi milli-mənəvi dəyərlərin, sosial yardımlaşmanın və xeyirxahlıq duyğularının təntənəsinə çevrilir. Builki Qurban bayramı dünyanın qarşılaşdığı çətin sınaq dövrünə təsadüf etsə də, mömin vətəndaşlarımız Allah və din yolunda mənəvi borclarını layiqincə yerinə yetirir, öz nəcib əməlləri ilə cəmiyyətimizdə birlik və bərabərlik ovqatını daha da gücləndirirlər.

Əziz bacı və qardaşlarım!

Bu bayram günlərində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsini minnətdarlıqla yad edir, onların yaxınlarına və bütün xalqımıza səbir diləyirəm. İnanıram ki, xalqımızın firavanlığı və əmin-amanlığı, Vətənimizin çiçəklənməsi və tərəqqisi naminə etdiyiniz dua və diləklər gerçəkləşəcəkdir.

Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə cansağlığı və xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 28 iyul 2020-ci il*

# MEHRİBAN ƏLİYEVA: "Hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında."

Hörmətli həmvətənlər!

Son günlər baş verən hadisələr ölkəmizin hər bir vətəndaşını narahat edir. İşğalçının növbəti təxribatına dərhal layiqli cavab verildi.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Tanrıdan yaralı əsgərlərimizin tezliklə sağalmasını diləyirəm. Tanrı hər bir Azərbaycan döyüşçüsünün həyatını və sağlamlığını qorusun.

Bu günlərdə bizim hamımızı emosiyalar bürüyür. Emosiyalar çoxdur. Hüznlə və şəhidlərin işıqlı xatirəsinə ehtiramla yanaşı ən güclülərindən biri qürur hissidir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinə, qəhrəman oğullar yetişdirən analara görə qürur. Vətəndaşlarımızın vətənpərvərlik hissinə, ilk çağırışdan Vətənin müdafiəsinə qalxmağa hazır olan gənclərə və on minlərlə könüllüyə görə qürur. Ölkəmizdən kənarda öz birmənalı mövqeyini bildirən, dövlətimizi və ordumuzu dəstəkləyən minlərlə azərbaycanlıya görə qürur hissi.

Hər kəsi saran birlik, ruh yüksəkliyi nümayiş etdirmək və tarixi həqiqətin təntənəsi, - Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hər bir addıma hazır olmaq, - bizim müqəddəs mübarizəmizdə güclü və təsirli vasitədir.

Bu günlər ərzində əsl Vətəndaş mövqeyi nümayiş etdirən hər kəsə minnətdaram.

Əziz qardaşlar və bacılar!

Yüksək vətənpərvərlik və mübarizlik əhval-ruhiyyəsi fonunda bu gün bizim hər birimizdən dözümlü, sayıq və təmkinli olmaq tələb olunur. Hər an unutmamalıyıq ki, artıq uzun illərdir yaşadığımız qarşıdurma şəraiti bilavasitə hərbi əməliyyatlar bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Sosial şəbəkələr dövründə informasiya müharibələrinin miqyası, onların hadisələrin gedişatına təsiri qarşıdurmanın nəticəsinə təsir edən olduqca mühüm amilə çevrilirlər.

Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən "feyk"lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd - çaxnaşma, nifaq salmaq və daxili "cəbhə" yaratmaq, düşkünlük və məğlubiyyət əhval-ruhiyyəsini artırmaqdır.

Saxta profillərdən və birdəfəlik işlətmə üçün nəzərdə tutulan telefon nömrələrindən tutmuş istifadəçilərin görmə, eşitmə, emosional qavrayışına psixoloji təsir üsullarından istifadəyədək geniş alətlər arsenalı işə düşür. Bir sözlə, insan qəlbinin ən kövrək tellərinə toxunmaq üçün ən çirkin vasitələrə əl atılır. Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən qüvvələr öz məqsədlərini güdərək "müharibədə bütün vasitələr yaxşıdır" prinsipi ilə hərəkət edirlər.



Çox sevindirici haldır ki, Azərbaycanın internet istifadəçilərinin əksəriyyəti təxribata uymur, yalan və böhtanı ifşa edir, ağı qaradan seçməyi bacarır və münaqişənin kökləri haqda həqiqətlərdən bəhs edir. Axı bizim əsas vəzifələrimizdən biri ədaləti tələb edən haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaqdır.

Fəallıq göstərən, düzgün danışan, qanun və əxlaq normaları çərçivəsində əsaslandırılmış şəkildə bu fəaliyyət sahəsində ölkəmizin maraqlarını qoruyan hər kəsə təşəkkür edirəm.

Amma başqa misallar da var. Öz Vətəninə nə dərəcədə nifrət etməlisən ki, Azərbaycan Ordusunun düşmən təxribatına layiqincə cavab verdiyi bir vaxtda üçüncü ölkələrdə gizlənərək "darmadağın edilmiş" Azərbaycan mövqeləri, mülki əhali arasında çoxsaylı insan tələfatı haqqında yalanları efirə verəsən, həmvətənlərimizin qəlblərinə

təlaş, qorxu və məyusluq yeridəsən? Yaxud əhəmiyyətsiz, həyata keçirilməz siyasi ambisiyalar naminə parçalanma, hərc-mərclik, qarışıqlıq yaratmaq üçün Azərbaycan gənclərinin vətənpərvərlik əhval-ruhiyyəsindən istifadə etməyə çalışasan?

Bu hərəkətlərə və belə insanlara haqq qazandırmaq olmaz. Onların öz torpağı naminə canından keçməyə hazır olan milyonlarla azərbaycanlı ilə ümumi heç nəyi yoxdur və ola da bilməz. Tanrı onlara hakimdir, çünki ictimai qınaqdan başqa Allah qarşısında hamı cavabdehdir.

Əziz dostlar!

Sosial şəbəkələrdə nümayiş etdirdiyiniz qarşılıqlı dəstəyi, səbri, həmrəyliyi, təmkini və özünənəzarəti görməmək mümkün deyil. Buna görə sizə minnətdaram! Biz hamımız sayıq olmalı, təxribata uymamalıyıq. Gəlin hər dəfə yeni paylaşım edərkən, foto yerləşdirərkən və ya şərh yazarkən unutmayaq ki, biz müharibə şəraitində yaşayırıq və qarşı tərəf informasiya məkanında yayımladığımız hər şeydən istifadə edə bilər. Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur.

Mən doğma Azərbaycanımı və öz müdrik, mərd və mərhəmətli xalqımı hədsiz dərəcədə sevirəm! Bizim işimiz haqq işidir və Tanrı bizimlədir! Uca Tanrı Azərbaycanı qorusun!

Sevgilərlə,

Sizin MEHRİBAN

# Mehriban Əliyeva: "İnsan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram."

Əziz həmvətənlər!

Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələr milyonlarla azərbaycanlı kimi, məni də dərindən hiddətləndirib.

Azərbaycanlıların öz Vətənini dəstəkləmək üçün müvafiq dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmış dinc, vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib.

Yaxşı hazırlıq və təlim keçmiş təhrikçilər sayca xeyli üstün olmalarından istifadə edib dinc nümayişçilərə hücum çəkərək onlara xəsarət yetiriblər. Bir sıra hallarda aqressiv əhval-ruhiyyəli erməni qrupları həmin vaxt azlıqda qaldığına görə azğınlaşmış kütləyə müqavimət göstərə bilməyən azərbaycanlılara hücum ediblər.



Onilliklər boyu aşılanan nifrət və azərbaycanofobiya ideologiyası öz "eybəcər bəhrəsini" verir - ermənilərin bir qismi dinc azərbaycanlı nümayişçilərə dünya paytaxtlarının mərkəzində daş atır, digərləri Azərbaycan vətəndaşlarının evlərinə ağır artilleriya silahlarından atəş açırlar.

Tarixdə Azərbaycan xalqına qarşı bu cür cinayətlər törədilməsi nümunələri çox olub.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin dinc azərbaycanlı əhalisinin Ermənistan silahlı qüvvələri tərəfindən kütləvi şəkildə məhv edilməsini xatırlamaq kifayətdir. Bu faciəli hadisələr 10-dan çox dövlət tərəfindən

soyqırımı kimi tanınıb və beynəlxalq təşkilatlar səviyyəsində pislənib.

O qanlı gecədə təpədən dırnağa qədər silahlanmış erməni döyüşçülər xüsusi qəddarlıqla 613 nəfəri qətlə yetirib, 421 dinc sakin işgəncələrə və təhqirlərə məruz qalıb, 1275 nəfər itkin düşüb və ya girov götürülüb, şəhər özü isə tamamilə yandırılıb.

Mindən çox dinc vətəndaş odlu silah yaraları nəticəsində şikəst olub. Öldürülənlər arasında 106 qadın, 63 uşaq, 70 ahıl şəxs olub.

Səkkiz ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. 56 nəfər diri-diri yandırılıb.

İki yaşlı Zəhra Quliyevanın erməni təcavüzkarlar tərəfindən qətlə yetirilməsini də qeyd etməmək olmaz. Zəhra 2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndinin iriçaplı silahlardan atəşə tutulması nəticəsində nənəsi ilə birlikdə həlak olub. Başqa bir misal. 2020-ci il iyulun 14-də Tovuz rayonunun 76 yaşlı dinc sakini Əziz Əzizov erməni silahlı qüvvələri tərəfindən mülki obyektlərin artilleriya atəşinə tutulması nəticəsində həlak olub.

Erməni təbliğat-təşviqat şəbəkəsi 30 ildən artıqdır ki, bu amansız cinayətlərə haqq qazandırmağa çalışaraq çoxsaylı diasporunun köməyi ilə məkrli anti-Azərbaycan təbliğatı aparır. Sirr deyil ki, ölkəmizə qarşı böhtan kampaniyalarının mütləq əksəriyyəti də məhz erməni diasporu tərəfindən inspirasiya edilir və maliyyələşdirilir.

Nifrət və aqressiya dərəcəsi o qədər artıb ki, bu diasporun bəzi nümayəndələri özlərini demokratiyanın beşiyi hesab edən Qərb ölkələrinin paytaxtlarında qanunsuzluq və hərcmərclik törədirlər.

Avropa siyasətinin mərkəzi sayılan Brüsseldə Azərbaycan Respublikası səfirliyinin daşa basılmasını, dinc nümayişçilərə xəsarət yetirilməsini başqa necə izah etmək olar?

Los-Ancelesdən, Brüsseldən və digər şəhərlərdən çəkilmiş, düşmənlərimizin həqiqi simasını göstərən zorakılıq və vandalizm kadrları həm haqlı olaraq hiddət, həm də əsaslı suallar doğurur.

Həmin ölkələrin hüquq-mühafizə orqanları azğınlaşmış bandit qruplaşmalarının bu cür hərc-mərclik törətməsinə nə üçün imkan verirlər? Bu cinayətlərə necə göz yummaq olar?

Mən bütün dünyada yaşayan milyonlarla azərbaycanlı adından ABŞ-ın, Belçikanın və digər dövlətlərin hüquq-mühafizə orqanlarını bu hadisələri hərtərəfli təhqiq etməyə, onlara müvafiq hüquqi qiymət verməyə və bütün təqsirkarları məsuliyyətə cəlb etməyə çağırıram, çünki qanunsuz əməllər cəzalandırılmalıdır.

Mən, həmçinin çoxsaylı qeyri-hökumət təşkilatlarını, o cümlədən insan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram. Lakin nədənsə biz hələ onların səslərini eşitmirik. Ümidvaram ki, bu qurumlar yetərincə prinsipiallıq nümayiş etdirərək ikili standartlar siyasətindən əl çəkəcək və faktlara əsaslanan bəyanatlarla çıxış edəcəklər.

Əziz qardaşlar və bacılar!

Baş verənlər Ermənistanın işğalçı siyasətinin dinc Azərbaycan əhalisi üçün nə qədər təhlükəli olmasını dünya birliyinə əyani şəkildə nümayiş etdirir.

Belə hallarda bizim borcumuz bu həqiqəti dünya birliyinə çatdırmaqdır.

Bizim vəzifəmiz birləşmək və son zorakılıq aktlarının ədalətlə təhqiq edilməsini, təqsirkarların məsuliyyətə cəlb olunmasını bütün tribunalardan təkidlə tələb etməkdir.

Hər bir səsin əhəmiyyəti var!

Mən bütün dünya azərbaycanlılarını birgə hərəkət etməyə, azğınlaşmış düşmənə layiqli cavab vermək üçün bizim diasporun bütün potensialını birləşdirməyə çağırıram. Bununla belə, unutmamalıyıq ki, qeyri-insani nifrət hissini əsas götürən vəhşilərə və banditlərə bənzəmək olmaz. Bizim mübarizəmiz yalnız hüquq müstəvisi çərçivəsində aparılmalıdır.

Bu günlərdə bütün dünya şəhərlərində öz səsini ucaltmış və Azərbaycan bayrağını qaldırmış hər kəsə təşəkkür edirəm.

Qoy, heç kim şübhə etməsin ki, heç bir provokasiya bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Biz milyonlarlayıq, bizim bir məqsədimiz var - Vətəni müdafiə etmək, onun ərazi bütövlüyünü və tarixi həqiqəti bərpa etmək.

Ona görə ki, Qarabağ Azərbaycandır və nida işarəsi!

# Ədliyyə Nazirliyində videokonfrans formatında kollegiya iclası keçirilib






**İyulun 29-da Ədliyyə Nazirliyində cari ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş videokonfrans formatında kollegiya iclası keçirilib.**

Çıxış edən Ədliyyə naziri Fikrət Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan ölkəmizin davamlı və sabit inkişafına xidmət edən mütərəqqi islahatlardan, dünyada tüğyan edən COVİD-19 qlobal pandemiyasına qarşı görülən qəti tədbirlərdən danışıb. Bildirib ki, xalqımız bu bəla ilə mübarizədə sosial həmrəylik nümayiş etdirərək dövlət başçısı və Azərbaycanın Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın insanların sağlamlığının və təhlükəsizliyinin qorunması ilə bağlı qayğılı və həssas münasibətini minnətdarlıqla qarşılayır.

İclasda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş Ermənistanın növbəti hərbi təxribatının ordumuz tərəfindən fədakarlıq və qəhrəmanlıqla dəf edildiyi vurğulanaraq, şəhid olan hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Qeyd edilib ki, yüksək vətənpərvərlik nümayiş etdirən on minlərlə gəncin Ali Baş Komandanın çağırışına səs verərək könüllü orduda xidmət etməklə bağlı müraciətləri xalqımızın ölkə Prezidentinin ətrafında sıx səfərbər olmasının əyani təzahürüdür.

Məlumat verilib ki, cari ildə ədliyyə işinin müasirləşdirilməsi, xüsusi karantin rejimində fəaliyyətin təşkili məqsədilə zəruri profilaktik işlər aparılıb, müvafiq normativ sənədlər qəbul edilərək icrası təmin olunub.

Bu dövrdə qanunvericilik sahəsində nazirlik tərəfindən 1.210 normativ hüquqi akt layihəsi hazırlanıb, 1.160-dək akt hüquqi ekspertizadan keçirilib. Əhali üçün daim açıq olan və mütəmadi yenilənən milli qanunvericiliyin elektron bazalarına (www.e-qanun.az və www.huquqiaktlar.gov.az) 2 minə yaxın sənəd daxil edilib və həmin elektron resurslara 1,34 milyondan çox baş çəkilib.

Əhalinin hüquqi maarifləndirilməsi, xüsusilə pandemiya şəraitində ədliyyəyə əlçatanlığın təmin olunması ilə bağlı insanların məlumatlandırılması genişləndirilib, nazirliyin internet saytının və sosial şəbəkə səhifələrinin imkanları və interaktivliyi artırılıb, mətbuat konfransı, ictimai təqdimatlar keçirilib.

Dövlət başçısının vətən-

daşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları diqqətdə saxlanılıb, onların müasir İKT tətbiq olunmaqla videoqəbulunun Qaydası müəyyən olunub, 5.300-dən çox vətəndaş nazirlikdə, bölgələrdə və videoformatda qəbul edilərək qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

Birinci yarımildə 1,8 milyona yaxın notariat hərəkəti rəsmiləşdirilib, həmçinin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı 133 mindən çox əməliyyat aparılıb. Bu əməliyyatlarla bağlı 3,5 milyon manata yaxın vəsait, daşınmaz əmlakla əlaqədar müqavilələr üzrə isə 16 milyon manatadək vergi dövlət büdcəsinə köçürülüb.

Vətəndaş məmnunluğunun artırılması məqsədilə nazirlik tərəfindən 30-dan çox elektron xidmətin göstərilməsi fasiləsiz təmin edilib, bu xidmətlərdən istifadə sayı cari ildə 860 minə yaxın olub. Eyni zamanda innovasiyaların tətbiqi genişləndirilərək "Mobil notariat"ın funksionallığı artırılıb, o cümlədən bir sıra etibarnamələrin mobil qaydada verilməsi ilə bağlı vətəndaşlara yeni imkanlar yaradılıb.

Qeyd olunub ki, birinci yarımildə 73 qeyri-kommersiya qurumu, o cümlədən çoxpartiyalı sistemin inkişafına dövlət dəstəyinin təzahürü olaraq 4 yeni siyasi partiya dövlət qeydiyyatına alınıb, 30-dək mətbu nəşr uçota götürülüb. Hazırda qeyri-kommersiya təşkilatlarının ümumi sayı 4.624, mətbu nəşrlərin sayı isə 5.343 təşkil edir.

İclasda ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rol oynayan məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması üzrə ardıcıl tədbirlərin davam etdirildiyi qeyd olunaraq altı ayda 307 min icra sənədinin icrasının təmin edildiyi, hüquqi və fiziki şəxslərə 376 milyon manatdan çox vəsait ödətdirildiyi bildirilib. Bu sahədə işin səmərəliliyinin artırılması üçün alternativ icra mexanizmlərinin tətbiqi müzakirə olunub.

Diqqətə çatdırılıb ki, indiki pandemiya şəraitində borclu şəxslərə aliment, kredit, cərimə və digər icra ödənişlərinin "ASAN ödəniş" və "Elektron hökumət" portalları, eləcə də müxtəlif mobil tətbiqlər vasitəsilə onlayn qaydada və ya terminallar vasitəsilə həyata keçirilməsi, valideynlik hüququndan istifadənin - uşaqla ünsiyyətin video-əlaqə vasitəsilə təmin edilməsi imkanının yaradılması məhkəmə qərarlarının icrasının səmərəsini artırıb.

Cari ildə həmçinin, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqi genişlənib, o cümlədən azadlığın məhdudlaşdırılması və digər cəzalara məhkum olunmuş 1.750 şəxsə elektron qolbaq tətbiq edilib.

Nazirlik tərəfindən ədalət mühakiməsi əleyhinə, o cümlədən məhkəmə qərarlarının icra olunmaması və digər cinayətlərlə bağlı 241 iş üzrə ibtidai istintaq tamamlanıb, bu zaman fiziki və hüquqi şəxslərə vurulmuş 1,13 milyon manat məbləğində ziyan istintaqın gedişində ödətdirilib.

Bundan əlavə, ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin davam etdirildiyi bildirilib, cari ildə Məhkəmə Ekspertizası Mərkəzində 41 ekspert ixtisası üzrə 15.000-dən çox işə baxıldığı, ekspertlər tərəfindən 374.000-dən artıq suala cavab verməklə qaldırılmış məsələlərin 99,7%-nin həll edildiyi bildirilib.

Bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunması, səmərəli inzibati nəzarətin həyata keçirilməsi və metodoloji yardımın gücləndirilməsi diqqətdə saxlanılıb, 41 minə yaxın bələdiyyə aktına inzibati nəzarət qaydasında baxılıb, 1.000-dən çox akt nazirliyin təklifləri əsasında ləğv edilib və ya dəyişdirilib, habelə qanunsuz verilmiş 3.500 hektara yaxın torpaq sahəsi geri qaytarılıb. Pozuntulara yol verən 53 bələdiyyə sədri barəsində inzibati xəta haqqında protokollar məhkəmələrə, cinayət xarakterli 20 fakt üzrə materiallar isə prokurorluğa göndərilib.

Kollegiyada bildirilib ki, dövlət başçısının humanist siyasətinin təzahürü olaraq imzaladığı 06.04.2020-ci il tarixli Sərəncamla virusa yolux-

ması daha riskli olan yaşı 65-dən yuxarı 176 məhkum əfv edilib. Cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı yenicə qəbul edilərək icrasına başlanılmış qanunvericiliyin tətbiqi ilə artıq 130 məhkum cəzadan azad olunub. Həmçinin nazirlik tərəfindən cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun davamlı olaraq intensiv tətbiqi və bu məsələdə müasir informasiya texnologiyalarının istifadəsi nəticəsində cari ildə 1.250 nəfər, o cümlədən pandemiya dövründə 983 nəfər vaxtından əvvəl azadlığa buraxılıb.

Eyni zamanda penitensiar xidmətin fəaliyyətinin, məhkumların islah-tərbiyə işinin təkmilləşdirilməsi, ictimai faydalı əməyə cəlb olunmaları ilə bağlı tədbirlərin davam etdirildiyi, Ədliyyə naziri yanında İctimai Komitənin imkanlarından istifadə olunmaqla məhkumlara müxtəlif hüquqi yardım göstərildiyi bildirilərək Kollegiyada məhkumlarla tərbiyə və psixoloji yardım işinin təşkili haqqında yeni Təlimat layihəsinə baxılmaqla qəbul edilib.

İclasda 2020-ci ildə nazirliyin beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi üzrə tədbirlərə toxunulub, Azərbaycan Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında müvafiq saxlama yerlərinə, o cümlədən penitensiar müəssisələrə maneəsiz baş çəkməyə imkan verən Sazişin müddətinin uzadılmasına dair Protokolun, habelə ölkəmizin tərəfdar çıxdığı BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının UNİCEF-in hazırladığı yuvenal ədliyyə sahəsindəki öhdəlikləri ehtiva edən "Öhdəlik Bəyannaməsi"nin imzalandığı bildirilib.

Eyni zamanda, nazirlik tərəfindən mülki və cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya ilə bağlı 8 minə yaxın sorğunun icrası təmin olunub.

Dövlət başçısı tərəfindən elan olunmuş 2020-ci il "Könüllülər ili çərçivəsində bu institutun təşviqi genişləndirilərək 1.000-dək gənc ədliyyə orqanlarında və məhkəmələrdə könüllü fəaliyyətə cəlb edilib, ədliyyə sahəsində fəaliyyət göstərən könüllülərin təşəbbüsü ilə "Ədliyyə Könüllüləri" İctimai Birliyi təsis olunaraq səmərəli fəaliyyət göstərir.

Cari ilin birinci yarımilində Ədliyyə Akademiyasında, həmçinin karantin rejimi dövründə distant tədrisə üstünlük verilərək 1000-ə yaxın ədliyyə işçisi, hakim və digər hüquqşünaslar müxtəlif təlimlərə cəlb olunub, habelə 170-dən çox aztəminatlı şəxsə pulsuz hüquqi yardım göstərilib.

Kollegiyada həmçinin, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, müasir məhkəmə infrastrukturunun yaradılması üzrə tədbirlər qeyd edilib, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanla verilmiş davamlı tapşırıqların icrası müzakirə olunub. Bildirilib ki, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin respublikanın bütün ərazisi üzrə tətbiqi üçün Dünya Bankı ilə birgə əməli tədbirlər görülür.

Əhalinin məhkəməyə əlçatanlığının təmin edilməsi məqsədilə mülki xarakterli işlər üzrə məhkəmə prosesinin videokonfrans vasitəsilə həyata keçirilməsi təşkil olunub. Həmçinin, yenicə qəbul olunmuş Cinayət Prosessual qanunvericiliyə edilmiş dəyişikliklərə uyğun olaraq cinayət işləri üzrə məhkəmə proseslərinin videokonfrans formatında onlayn qaydada keçirilməsinə başlanılıb, xüsusi karantin rejimi dövründə bu innovasiyanın tətbiqinin müstəsna əhəmiyyəti vurğulanıb.

İclasda ədliyyə fəaliyyətinin dövlət başçısının qarşıda qoyduğu yüksək tələblər səviyyəsində qurulması üzrə vəzifələr müzakirə edilib, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, şəffaflığın və vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi və antikorrupsiya mühitinin yaradılması ilə bağlı və digər konkret göstərişlər verilib.

Sonda Kollegiyada bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Ədliyyə naziri vətəndaşların videoqəbulunu keçirib




**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət orqanları qarşısında qoyduğu ən ümdə vəzifələrdən biri insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə və şəxsi qəbullarına hər zaman həssaslıqla yanaşılmasını diqqətdə saxlamaqdır.**

COVİD-19 qlobal pandemiyası ilə əlaqədar xüsusi karantin rejimi şəraitində kütləvi tədbirlərlə yanaşı, bilavasitə qəbullar təxirə salınıb.

Bununla əlaqədar nazirlik tərəfindən vətəndaşların müraciətlərinə elektron qaydada baxılması təmin edilir, eyni zamanda dövlət başçısının tapşırığına uyğun olaraq nazirlikdə vətəndaşların videoqəbulunun Qaydası müəyyən olunub və bu işin təşkilində müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə olunur.

Ədliyyə naziri Fikrət Məmmədov tərəfindən müxtəlif bölgələrdə yaşayan vətəndaşların videoqəbulu keçirilib.

Gəncə, Şəki və İmişli regional ədliyyə idarələri vasitəsilə qəbula yazılmış vətəndaşların videokonfrans formatında ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərə dair nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgələrin sakinləri COVİD-19 qlobal pandemiyası şəraitində xalqımızın sağlamlığının və təhlükəsizliyinin qorunması ilə bağlı göstərilən qayğılı və həssas münasibətə görə respublika Prezidentinə və Birinci vitse-prezidentə təşəkkürlərini ifadə edib, bununla bağlı qəbulun videoformatda təşkilindən məmnunluqlarını bildiriblər.

# Cinayət mühakimə icraatında innovasiyalar tətbiq olunur

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı və sabit inkişafının təmin olunması üzrə məqsədyönlü addımlar atılır. Dünyada tüğyan edən və insanların sağlamlığını təhdid edən COVİD-19 qlobal pandemiyasına qarşı qəti tədbirlər görülərək xalqımız dövlət başçısının və Azərbaycanın Birinci vitse prezidenti Mehriban xanım Əliyevanın bu bəla ilə mübarizədə çağırışlarına qoşularaq sosial həmrəylik nümayiş etdirirlər.**

Son günlər Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində Ermənistanın növbəti hərbi təxribatı nəticəsində baş verən toqquşmalar və qanlı döyüşlər, hərbçilərimizin şücaəti dövlətimizin, ordumuzun gücünü, xalqımızın ölkə Prezidenti, Ali Baş Komandanın ətrafında sıx səfərbər olmasını göstərir.

Cari ildə dövlət başçısı tərəfindən yeni çağırışlara uyğun aparılan hərtərəfli islahatlar çərçivəsində ədliyyə və məh-

kəmə sisteminin təkmilləşdirilməsi üzrə də ardıcıl və məqsədyönlü tədbirlər davam etdirilib.

"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmana əsasən dövlət başçısının humanist siyasətinin təzahürü olaraq bu il mayın 1-də qəbul olunmuş Qanunla cinayət qanunvericiliyinə edilmiş dəyişikliklərlə bəzi əməllər dekriminallaşdırılıb, zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunub. Bununla əlaqədar nazirlik tərəfindən yeni Qanunun tətbiqinin təmin edilməsi məqsədilə artıq 600 məhkumun işləri öyrənilib və onların qanunun təsiri altına düşməsi təhlil edilib.

Fərmanın icrası çərçivəsində həmçinin, hazırlanaq qəbul olunmuş Cinayət Prosessual Məcəlləsinə edilmiş dəyişikliklərlə cinayət işlərində videokonfransın keçirilməsi imkanı yaradılıb.

Belə ki, qanunvericilikdəki yeniliklərlə cinayət mühakimə icraatının "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması qaydası, cinayət prosesi iştirakçılarının məhkəmə və istintaq orqanına gəlmədən məsafədən prosesdə iştirakı, məhkəmə iclaslarının fasiləsiz audio yazısının aparılması və s. müəyyən olunub.

Həmçinin, məhkəmə icraatı uzadılmadan hazırlıq iclasında cinayət təqibinə xitam verilməsi imkanları genişləndirilib,





kassasiya şikayəti (protesti) verilməsi müddətləri qısaldılıb, habelə onların verilməsi və baxılması proseduru təkmilləşdirilib, eləcə də xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraatın aparılması qaydası təsbit edilib.

COVİD-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin elan olunduğu indiki dövrdə bu innovasiyanın tətbiqi xüsusi əhəmiyyət kəsb etməklə, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və əlçatanlığın asanlaşdırılmasına, tərəflərin təhlükəsizliyinin və məsafədən dindirilməsinin təmin olunmasına, əlavə vaxt itkisinin və xərclərin, süründürməçiliyin qarşısının alınmasına xidmət edir.

15.07.2020-ci il tarixdən yeni Qanunun qüvvəyə minməsi ilə əlaqədar Ədliyyə Nazirliyi tərəfindən dərhal zəruri tədbirlər görülüb və məhkəmələrin karantin rejiminə uyğun fəaliyyət göstərməsi nəzərə alınaraq iyulun 16-dan cinayət işləri üzrə məhkəmə proseslərinin videokonfrans formatında onlayn qaydada keçirilməsinə başlanılıb.

Nazirliyin vətəndaş cəmiyyəti institutlarının təmsil olunduğu Komissiyasının rəyləri nəzərə alınmaqla göndərdiyi təqdimatlara məhkəmələr tərəfindən təxirəsalınmadan onlayn qaydada baxılaraq 70 nəfərə yaxın şəxs vaxtından əvvəl cəzadan azad olunub və ya daha yüngül rejimli müəssisəyə keçirilib.

Eyni zamanda cəza siyasətinin humanistləşdirilməsinə dair yeni Qanunun təsiri altına düşən məhkumlarla bağlı təqdimatlara baxılaraq artıq 130 nəfərə yaxın şəxs müxtəlif cəzadan azad olunub və ya cəzası azaldılıb.

İndiki pandemiya şəraitində belə bir humanist institutların innovasiyalardan istifadə edilməklə tətbiqi dövlətimizin insanların sağlamlığına, hüquq və mənafelərinə qayğılı münasibətinin təzahürüdür.

Qeyd olunmalıdır ki, pandemiya dövründə vətəndaşların mülki hüquqlarının məhkəmə müdafiəsinin yaxşılaşdırılması məqsədilə "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aprel ayından etibarən qeyri-cinayət işləri üzrə məhkəmə proseslərinin videokonfrans formatında keçirilməsi imkanı da yaradılıb.

# Avropa İttifaqının və diplomatik korpusun təmsilçiləri ilə videokonfrans formatında görüş

**İyulun 2-də Ədliyyə Nazirliyində Avropa İttifaqının və 15-ə yaxın dövlətin ölkəmizdəki səfirliklərinin təmsilçiləri ilə "Ədliyyə orqanlarında COVİD-19 infeksiyası ilə mübarizə tədbirləri" mövzusunda videokonfrans formatında görüş keçirilib.**

Vətəndaş cəmiyyəti nümayəndələrinin də qatıldığı görüşdə məqsəd koronavirus pandemiyasına qarşı görülən tədbirlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması, bu sahədə əməkdaşlıq məsələlərini müzakirə etmək olub.

Nazirliyin struktur qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən tədbirdə ölkə Prezidenti cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə COVİD-19 infeksiyasına qarşı aparılan qəti tədbirlərdən bəhs olunub, ədliyyə orqanlarında pandemiya ilə mübarizədə görülən işlərdən danışılıb.

Məlumat verilib ki, nazirlik tərəfindən ədliyyə qurumlarında, xüsusilə penitensiar müəssisələrdə davamlı dezinfeksiya, profilaktik və digər preventiv işlər aparılıb, vətəndaşların müraciətləri və qəbulu işi, əhaliyə göstərilən ədliyyə xidmətləri, habelə beynəlxalq hüquqi yardımın həyata keçirilməsi elektron qaydada təşkil edilib, əlçatanlığın asanlaşdırılması məqsədilə müasir innovasiyaların tətbiqi genişləndirilib.



Həmçinin, qlobal pandemiya şəraitində Ali Məhkəmənin tövsiyələrinə uyğun olaraq məhkəmələr karantin rejiminə uyğun fəaliyyət göstərib. Eyni zamanda, yenilik olaraq qeyri-cinayət işləri üzrə məhkəmə prosessləri onlayn rejimdə videokonfrans formatında da keçirilib.

Qeyd olunub ki, bu ərəfədə qanunvericiliyinə edilmiş dəyişikliklərlə cinayət işlərində də "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə videokonfransın tətbiqi imkanları yaradılıb.

Tədbirdə dövlət başçısının əfv Sərəncamı ilə virusa yoluxması daha riskli olan yaşı 65-dən yuxarı 176 nəfər məhkumun azadlığa buraxıldığı, həmçinin davamlı xarakter alan cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və daha yüngül rejimli müəssisəyə keçirmə institutunun tətbiqinin dərhal intensivləşdirildiyi vurğulanıb, BMT və Avropa Şurası tərəfindən eyni tövsiyələrin bütün dövlətlərə ünvanlandığı qeyd olunub.

Bildirilib ki, bu humanist institutun şəffaf tətbiqi məqsədilə yaradılmış nazirliyin xüsusi Komissiyası pandemiya dövründə fəaliyyətini gücləndirmiş rejimdə davam etdirərək məhkumların işləri öyrənilib, video-konfrans vasitəsilə virtual qaydada keçirilən iclaslarda onlarla söhbətlər aparılıb və qanunvericiliyin tələblərinə cavab verən şəxslər barədə materiallar dərhal məhkəməyə təqdim olunub.

Həmin işlərə məhkəmələr tərəfindən təxirəsalınmadan baxılaraq pandemiya dövründə 1.000 nəfərədək məhkum vaxtından əvvəl şərti olaraq azadlığa buraxılıb, 429 həbs edilmiş şəxs isə ev dustaqlığı və digər alternativ qətimkan tədbirlərinin tətbiqi nəticəsində

həbsdən azad ediliblər.

Görüşdə həmçinin, nazirliyin Tibb baş idarəsi tərəfindən fəaliyyətini Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun quraraq Səhiyyə Nazirliyi və TƏBİB ilə sıx əlaqədə penitensiar müəssisələrdə saxlanılan məhkumların, istintaq təcridxanalarına yeni daxil olan həbs edilmiş şəxslərin müayinəsinə xüsusi diqqətlə yanaşıldığı bildirilib. Məhkumların sağlamlığına, tibb, dərman və digər təminatlarına monitorinqlər aparılmaqla gündəlik nəzarət olunduğu, bu məqsədlə nazirlik tərəfindən yaradılmış vətəndaş cəmiyyəti nümayəndələrinin daxil olduğu xüsusi monitorinq qrupunun fəaliyyəti qeyd olunub.

Bu dövrdə beynəlxalq təşkilatların, o cümlədən Avropa İttifaqının birgə həyata keçirilən layihə çərçivəsində, habelə Beynəlxalq Qızıl Xaç Komitəsinin penitensiar müəssisələrdə COVİD-19 infeksiyasına qarşı mübarizə tədbirlərinə öz dəstəklərini əsirgəmədikləri bildirilib. Eyni zamanda qeyd olunub ki, bu ərəfədə Azərbaycan Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında müvafiq saxlama yerlərinə, o cümlədən penitensiar müəssisələrə maneəsiz baş çəkməyə imkan verən Sazişin müddətinin uzadılmasına dair Protokol imzalanıb və ölkə Prezidenti tərəfindən artıq təsdiq edilib.

Vətəndaş cəmiyyətinin təmsilçiləri Ədliyyə Nazirliyi tərəfindən pandemiyaya qarşı ilk gündən çox ciddi addımların atıldığını, bununla bağlı keçirilən monitorinqlərdə, şərti azadetmə institutunun tətbiqi ilə bağlı Komissiyanın iclaslarında yaxından iştirak etdiklərini söyləyərək bu sahədə görülən işləri, səmərəli ictimai nəzarətin həyata keçirilməsini yüksək dəyərləndiriblər.

Avropa İttifaqının nümayəndəsi görüşün üçtərəfli formatda keçirilməsini təqdirəlayiq olduğunu vurğulayaraq əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini qeyd edib, nazirlik tərəfindən pandemiyaya qarşı görülən tədbirlərə dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

# Ədliyyə Nazirliyində Azərbaycan milli mətbuatının 145 illiyi münasibətilə KİV-lərlə onlayn görüş keçirilib

**2020-ci il iyulun 22-də Azərbaycan milli mətbuatının 145 illiyi tamam olur. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu münasibətlə cari ilin iyunun 30-da imzalanmış Sərəncamla xüsusi karantin rejiminə riayət etməklə yubiley tədbirləri keçirilir.**

Ədliyyə Nazirliyi fəaliyyətində hər zaman aşkarlığa və şəffaflığa, kütləvi informasiya vasitələri ilə əməkdaşlığa xüsusi önəm verir. Nazirliyin 11 internet saytı, 5 dövrü nəşri, sosial şəbəkələrdə rəsmi səhifələri fəaliyyət göstərir.

Son illər nazirliyin KİV-lərlə əməkdaşlığı intensivləşib, mətbuat nümayəndələri ilə mütəmadi görüşlər, o cümlədən ədliyyə və məhkəmə fəaliyyətinə dair brifinqlər, mətbuat konfransları, ictimai təqdimatlar keçirilir. Pandemiya dövründə də vətəndaşların ədliyyəyə əlçatanlığının təmin edilməsi ilə bağlı görülən ardıcıl tədbirlərin işıqlandırılmasında KİV-lərin imkanlarından geniş istifadə olunur.

Eyni zamanda, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanına əsasən məhkəmə hakimiyyətinə ictimai etimadın gücləndirilməsi, məhkəmə fəaliyyətində şəffaflığın artırılması, geniş ictimaiyyətin məlumatlandırılması üzrə işlər davam etdirilir. Bu müstəvidə kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqələr genişləndirilib, Məhkəmə-Hüquq Şurasının qərarı ilə məhkəmələrdə media ilə işləyəcək spiker-hakimlər ayrılıb, eləcə də Şuranın özündə məsul şəxs müəyyən edilib, onların siyahısı

Şuranın saytında yerləşdirilib. Çoxsaylı KİV rəhbərlərinin və jurnalistlərin iştirakı ilə görüş təşkil olunaraq spiker-hakimlər KİV təmsilçilərinə təqdim olunub, habelə hakimlər və jurnalistlər üçün təlim və seminarlar təşkil edilib.

Azərbaycan milli mətbuatının yubileyi münasibətilə Ədliyyə Nazirliyində KİV-lərlə videokonfrans formatında onlayn görüş keçirilib. Tədbirdə nazirliyin və Azərbaycan Mətbuat Şurasının məsul şəxsləri, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri, spiker-hakimlər və çoxsaylı KİV nümayəndələri iştirak ediblər.

Onlayn görüşdə Azərbaycan milli mətbuatının zəngin tarixi yolundan bəhs olunub, ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra söz və məlumat azadlığının təmin edilməsinə, demokratik, azad mətbuatın formalaşmasına xüsusi diqqət və qayğı göstərildiyi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün geniş imkanların yaradıldığı, onların inkişafına hərtərəfli dəstək göstərildiyi vurğulanıb.

Bildirilib ki, respublikamızın ictimai-siyasi həyatında baş verən proseslərin və yeniliklərin dolğun, obyektiv və operativ işıqlandırılmasında, ictimaiyyətin mütəmadi məlumatlandırılmasında KİV-lər mühüm rol oynayır. İndiki pandemiya şəraitində mətbuat nümayəndələri də digər peşə sahibləri kimi yorulmadan fəaliyyət göstərirlər.





Həmçinin bu günlərdə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində Ermənistan tərəfindən törədilmiş hərbi təxribatlar barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında KİV-lərin önəmli fəaliyyəti qeyd olunaraq, sosial şəbəkələrdə aparılan informasiya müharibələrində paylaşımlar edərkən, informasiyalar yayarkən ölkəmizin mövqeyinin müdafiə olunması ilə bağlı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqa müraciəti diqqətə çatdırılıb.

Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, 525-ci qəzetin baş redaktoru Rəşad Məcid, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, "Konstitusiya araşdırmaları" Fondunun prezidenti, ədliyyə naziri yanında İctimai Komitənin üzvü Əliməmməd Nuriyev və digər çıxış edənlər ölkəmizdə mətbuatın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğıdan söz açıb, Ədliyyə Nazirliyinin kütləvi informasiya vasitələri ilə səmərəli əməkdaşlığını yüksək qiymətləndiriblər.

Tədbir iştirakçıları Azərbaycan milli mətbuatının yubileyi münasibətilə media nümayəndələrini təbrik edib, onlara uğurlu fəaliyyət arzulayıblar.

22 iyul - Milli Mətbuat Gününə həsr olunmuş tədbir çərçivəsində həmçinin, Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Mətbuat Şurası ilə birgə elan olunmuş "Məhkəmə-hüquq islahatları: müasir çağırışlar və innovativ təcrübələr" mövzusunda jurnalist araşdırmaları müsabiqəsinin nəticələri elan olunub və qaliblər mükafatlandırılıb. Eyni zamanda bir qrup jurnalistlər ədliyyə və məhkəmə fəaliyyətinin işıqlandırılmasında fəal iştirakına və səmərəli əməkdaşlığa görə nazirlik tərəfindən təltif olunublar.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində kollegiya iclası keçirilib





**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasından irəli gələn vəzifələrə və Ədliyyə Nazirliyində 2020-ci ilin birinci yarımili ərzində görülən işlərə dair keçirilən kollegiya iclasında Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri baş ədliyyə müşaviri Daşqın Rəhimov geniş məruzə ilə çıxış etmişdir.**

Qeyd etmişdir ki, hesabat dövründə nazirlikdə və tabe qurumlarda maarifləndirmə və profilaktika tədbirləri ön planda saxlanılmış, məhkəmə qərarlarının vaxtında icrasına diqqət yetirilmiş, bələdiyyələrin fəaliyyətinə nəzarət artırılmış, bələdiyyə orqanlarına zəruri metodiki köməkliklər göstərilmişdir.

İcra və probasiya şöbə və bölmələrinin icraatına 1507 icra sənədi daxil olmuş, bunlardan 600 iş tam icra olunmuş, 816 iş icraya yönəlmiş, 43 iş geri qaytarılmış, 48 iş ərazi aidiyyəti üzrə göndərilmişdir. 101 borclunun ölkədən getmək hüququ müvəqqəti olaraq məhdudlaşdırılmış, 96 borclunun üzərinə qoyulmuş məhdudiyyət götürülmüşdür.

Dövlət notariat ofisləri tərəfindən 5407 müxtəlif məzmunlu notariat əməliyyatları aparılmış, dövlət büdcəsinə 40184 manat dövlət rüsumu ödənilmişdir. Rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 4624 əməliyyat aparılmış və dövlət büdcəsinə 7800 manat dövlət rüsumu ödənilmişdir.

Hesabat dövründə bələdiyyələrə metodiki köməkliklər göstərilmiş, onların çatışmayan qeydiyyat kitabları və qovluqları təmin edilmiş, bələdiyyə fəaliyyətini təmin edən metodiki vəsaitlər paylanılmışdır. Nazirliyə daxil olmuş bələdiyyə aktlarından 1286-a müsbət rəy verilmiş, 1 aktın ləğv edilməsi təmin olunmuşdur.

Məhkəmə Ekspertizası Mərkəzinə daxil olan ekspertiza işləri üzrə 67 rəy, 16 arayış verilmiş, 7 ekspertiza işi icra olunmadan geri qaytarılmış, 4 işin icraatı vəsatət verildiyindən dayandırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ədliyyə orqanlarına göstərdiyi diqqət və qayğısı sayəsində ekspertiza mərkəzinə alınmış müasir avadanlıqların gətirilməsi təmin edilmişdir.

Nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisasının tələbələri üçün 3 dəfə onlayn tədbir, dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri üçün 1 dəfə onlayn seminar təşkil edilmişdir.

Penitensiar Xidmətdə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində işlər davam etdirilmiş, məhkum və həbs edilmiş şəxslərin hüquqları qorunmuş, təhlükəsizlik tədbirləri gücləndirilmişdir. 24 mart 2020-ci ildə Naxçıvan

Muxtar Respublikası Ali Məclisində dünyada pandemiya elan olunan virusun muxtar respublika ərazisində yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərə həsr olunmuş müşavirədən irəli gələn vəzifələrlə əlaqədar olaraq cəzaçəkmə müəssisələrində qabaqlayıcı profilaktiki tədbirlər görülmüş, kompleks dezinfeksiya tədbirləri aparılmışdır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında icra, ekspertiza və bələdiyyə fəaliyyəti ilə bağlı tapşırıqları təkçə bu sahələri deyil, nazirliyin bütün sahələrini əhatə etməklə icra olunacaqdır. Apardığımız hüquqi maarifləndirmə və profilaktika işi bundan sonra da daha keyfiyyətlə davam etdiriləcək, qarşıya qoyulan vəzifələr növbəti hesabat dövrü də icrası təmin olunacaqdır.

Hər bir xidmət sahəsinin işi diqqətdə saxlanılmaqla məhkəmə qərarlarının vaxtında icra edilməsinə nəzarət artırılmalıdır. Öhdəliklərini qərəzli yerinə yetirməyən borclularla bağlı tədbirlər görülməlidir. Ekspertlərin peşəkarlıq səviyyələrinin artırılması diqqətdə saxlanılmalı, verilən rəy və arayışların dolğun və aydın olması təmin edilməlidir. Bələdiyyə orqanlarına inzibati nəzarət gücləndirməlidir. Bu istiqamətdə maarifləndirici tədbirlər və profilaktika işi davam etdirilməlidir. Torpaqların icarəyə verilməsi zamanı qanunvericiliyə əməl edilməsinə nəzarət artırılmalı, aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq edilməlidir.

Penitensiar Xidmətdə profilaktika tədbirlərinə geniş yer verilməli, şəxsi heyətin və məhkumların maarifləndirilməsi ilə bağlı tədbirlər davam etdirilməlidir. Məhkumların sağlamlığı və sosial adaptasiya işi diqqət mərkəzində saxlanılmalıdır.

Məruzə ətrafında nazir müavini-Penitensiar Xidmətin rəisi, ədliyyə general-mayoru Tofiq Həsənov, Təşkilat-nəzarət şöbəsinin rəisi, baş ədliyyə müşaviri Səttar Zamanov, Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, ədliyyə müşaviri Rafiq Cəfərov, İcra və probasiya şöbəsinin rəisi, baş ədliyyə müşaviri Emin Kazımov, Bələdiyyələrlə iş mərkəzinin rəisi vəzifəsini icra edən, I dərəcəli ədliyyə qulluqçusu Xəyal Eyvazov çıxış etmişlər.

Sonda nazirliyin kollegiya qərarı qəbul edilmişdir.

# Azərbaycan və Türkiyə Ədliyyə akademiyaları səmərəli əməkdaşlıq edirlər

**Ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair 2019-cu il 3 aprel tarixli Fərmanı ilə əlavə ayrılmış hakim ştatlarının yüksək hazırlıqlı hüquqşünaslar hesabına komplektləşdirilməsi ilə bağlı ardıcıl tədbirlər görülür, bu məqsədlə hakimlərin şəffaf seçimi aparılır.**

Növbəti seçim zamanı uğur qazanmış 44 nəfər namizəd Ədliyyə Akademiyasında uzunmüddətli tədris kursuna cəlb olunub. Kurs zamanı onların, həmçinin beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi diqqət yetirilir.

Azərbaycan və Türkiyə Ədliyyə akademiyaları arasında səmərəli əməkdaşlıq münasibətləri qurularaq ötən dövrdə Türkiyə tərəfinin dəstəyi ilə 300-ə yaxın azərbaycanlı hakimliyə namizəd qardaş ölkədə nəzəri və praktiki təlim keçiblər.

COVİD-19 qlobal pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiqi nəzərə alınaraq iki ölkənin Ədliyyə akademiyaları tərəfindən hazırda tədris kursu keçən namizədlər üçün 16-22 iyul tarixlərində videokonfrans formatında distant təlim kursu təşkil olunub.

Təlimin açılışında Türkiyə Ədliyyə Akademiyasının rektoru Muhittin Özdemir və

Azərbaycan Ədliyyə Akademiyasının rektor əvəzi Elçin Xələfov tərəfindən çıxış edilərək iki ölkə arasında qədim tarixə söykənən dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə inkişafı, ölkələrimizin başçılarının ikitərəfli əməkdaşlığın möhkəmlənməsində güclü siyasi iradəsi qeyd olunub, dövlətlərimizin hər zaman bir-birinə dəstək göstərdiyi, bu ərəfədə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində Ermənistanın törətdiyi hərbi təxribat zamanı Türkiyənin Azərbaycana dəstəyi xüsusilə vurğulanıb.

Tədbirdə hüquqi sahədə əlaqələrimizin inkişafından məmnunluq ifadə olunub və birgə keçirilən tədbirlərin, o cümlədən hakimliyə namizədlər üçün distant təlimin və beynəlxalq təcrübənin öyrənilməsinin əhəmiyyəti qeyd edilib.




Təlimdə hakimliyə namizədlərə Türkiyə Ədalət Akademiyasının fəaliyyətinə dair təqdimat nümayiş etdirilib, Türkiyə məhkəmə sistemi və ixtisaslaşdırılmış məhkəmələrin mühakimə prosedurları, UYAP - SEGBİS (Türkiyə milli elektron məhkəmə və ədliyyə məlumat sistemi, səs və video informasiya sistemi), elektron bildiriş, icra qurumlarında elektron tədbirlərin tətbiqi və icra icraatı sistemi, mediasiya, korrupsiya cinayətləri barədə məlumat verilib.

Kursun proqramına uyğun olaraq mövzular Türkiyənin nüfuzlu hakimləri tərəfindən tədris olunub, maraqlı diskussiyalar keçirilib, namizədləri maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.

# Ədliyyə işçiləri könüllü qanvermə aksiyasına qoşulublar

**Ölkəmizdə əhalinin sağlamlığının qorunmasına, hemofiliya və talassemiya xəstəliklərindən əziyyət çəkən insanların qabaqcıl dünya təcrübəsinə uyğun müalicə olunmasına xüsusi diqqət yetirilərək, bu sahədə məqsədyönlü tədbirlər həyata keçirilir, müasir infrastrukturlar yaradılır.**

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Talassemiyasız həyat naminə" proqram layihəsi çərçivəsində könüllü qanvermə aksiyaları keçirilir.

Görülən tədbirlər xüsusilə indiki COVİD-19 qlobal pandemiyası dövründə insanların donor qanına ehtiyacı probleminin həllinə, qeyd olunan xəstəliklərin effektiv müalicəsinə xidmət edir.

Respublikamızın Birinci vitse-prezidentinin çağırışlarına qoşulan daha 150 nəfərə yaxın ədliyyə işçisi iyulun 21-22-də Milli Hematologiya və Transfuziologiya Mərkəzində qan veriblər.

Bu cür nəcib və xeyirxah tədbirlərdə hər zaman fəallıq nümayiş etdirən ədliyyə işçiləri bundan sonra da yaxından iştirak etmək əzmindədirlər.

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 17-ci bəndlərini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N2 (I kitab), maddə 202, N3, maddələr 397, 403, 429, N4, maddələr 631, 647, 654, N5, maddələr 835, 846, N6, maddələr 997, 1010, N7, maddələr 1247, 1249, N10, maddə 1608, N11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N1, maddə 21, N2, maddələr 147, 152, 162, N3, maddələr 331, 344, N5, maddələr 698, 701, 734, 749, 754, N6, maddələr 1020, 1033, 1036, N7, maddələr 1273, 1296, 1297, 1299, N11, maddələr 1964, 1966, 1969, 1979, N12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N1, maddə 19, N2, maddələr 160, 162, 163, N3, maddələr 383, 401, 404, N4, maddə 646, N5, maddələr 857, 860, 862, 876, 883, N6, maddələr 1153, 1168, N7 (I kitab), maddələr 1435, 1437, 1438, N10, maddə 1963, N11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N1, maddələr 4, 6, 15, 18, 44, N3, maddələr 374, 389, N4, maddələr 579, 581, 587, 595, N5, maddələr 791, 800, 803, 804, 813, N6, maddələr 992, 998, 1007, N7, maddə 1193, N8, maddələr 1364, 1367, 1368, 1381, 1383, N11, maddələr 1682, 1686, 1696, N12, maddələr 1883, 1900; 2020, N3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli və 1 may tarixli 69-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 28.4.1-ci və 30.2-ci maddələrdə ismin müvafiq hallarında "ikinci qrup əlillər" sözləri ismin müvafiq hallarında "ikinci dərəcə əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin və ismin müvafiq hallarında "uşaqlar" sözündən əvvəl "18 yaşınadək" sözləri əlavə edilsin.

2. 43.1-ci maddədə "204-208" rəqəmləri "204, 205, 205-1.2, 206-208" rəqəmləri ilə əvəz edilsin.

3. 72.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məhkəmə icraatında iştirak edən əlilliyi olan şəxslər ixtisaslaşmış vasitəçilərin (qiraətçilərin və peşəkar surdo tərcüməçilərin) köməyindən istifadə etdiyi hallarda, həmin ixtisaslaşmış vasitəçilər (qiraətçilər və peşəkar surdo tərcüməçilər) bu Məcəllənin məqsədləri üçün tərcüməçi hesab olunurlar.".

4. Aşağıdakı məzmunda 205-1-ci maddə əlavə edilsin:

"Maddə 205-1. Əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericiliyin pozulması

205-1.1. Əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericiliyin pozulmasına, yəni:

205-1.1.1. əmək münasibətlərində əlillik əlamətinə görə hər hansı ayrı-seçkiliyə yol verilməsinə, habelə kollektiv və əmək müqavilələrində digər işçilərlə münasibətdə əlilliyi olan şəxslərin əmək hüquqlarının məhdudlaşdırılmasına;

205-1.1.2. əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə (peşəyə, vəzifəyə) keçirilməsinə;

205-1.1.3. müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə;

205-1.1.4. müəssisənin ləğv edilməsi halları istisna olmaqla, həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi müəyyən edilmiş işçi ilə əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə;

205-1.1.5. əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı məqsədilə tərtib olunmuş Fərdi Reabilitasiya Proqramının dövlət orqanları və dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən icrasının təmin edilməməsinə;

205-1.1.6. işəgötürənlər həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi müəyyən edilmiş işçilərin, onların arzusu ilə və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq təsdiq edilmiş Fərdi Reabilitasiya Proqramını nəzərə alaraq, işə düzəlməsi üçün iş yerləri ayırmamağa və ya yenilərini təşkil etməməyə görə-

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

205-1.2. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin yaşadığı fərdi evlərin onlar üçün uyğunlaşdırılması ilə bağlı xərclərin təqsirkar hüquqi və fiziki şəxslər, dövlət orqanları tərəfindən ödənilməməsinə görə-

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.".

5. 342.1.11-ci maddədə "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin.

6. 346-1.3-cü maddədə "Əlillərin" sözü "Əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

7. 603.2-ci maddədən "sağlamlıq imkanlarının məhdudluğunun və ya" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 iyun 2020-ci il.*
*N 126-VIQD*

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N1, maddə 8, N8, maddə 686; 2006, N1, maddə 4; 2007, N4, maddə 321; 2010, N7, maddə 596; 2011, N2, maddə 71, N6, maddə 484; 2012, N12, maddə 1228; 2013, N12, maddə 1467; 2014, N7, maddə 783; 2015, N2, maddə 99, N4, maddə 347, N11, maddə 1287; 2016, N12, maddə 2032; 2017, N6, maddə 1044, N12 (I kitab), maddə 2188; 2018, N7 (I kitab), maddə 1443; 2019, N12, maddə 1902) 13.3-1-ci maddəsinin birinci cümləsinə "peşəkar çatışmazlıqlar" sözlərindən sonra ", o cümlədən məhkəmələrin fəaliyyətinin monitorinqi nəticəsində maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

*N132-VIQD*

## "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq qərara alır:

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, N6, maddə 268; 2006, N2, maddə 67; 2009, N4, maddə 213; 2011, N12, maddə 1078; 2019, N7, maddə 1194, N8, maddə 1365) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddəyə "hallarının" sözündən sonra", onları yaradan səbəb və şəraitin" sözləri əlavə edilsin.

2. 5.0.2-ci maddəyə "dövlət orqanının" sözlərindən sonra "(qurumunun)" sözü əlavə edilsin.

3. 6-cı maddə üzrə:

3.1. 6.0-cı, 6.0.2 - 6.0.8-ci maddələr müvafiq olaraq 6.1-ci, 6.1.2 - 6.1.8-ci maddələr hesab edilsin;

3.2. 6.1-ci maddədə "15 gündən" sözləri "5 iş günündən" sözləri ilə əvəz edilsin;

3.3. 6.1.4-cü maddədən "birdəfəlik" sözü çıxarılsın, həmin maddədə "rüsumların" sözü "ödənişlərin" sözü ilə əvəz edilsin;

3.4. aşağıdakı məzmunda 6.2-ci maddə əlavə edilsin:

"6.2. İnzibati nəzarəti həyata keçirən orqan ona göndərilmiş bələdiyyə aktının bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş normativ hüquqi aktlara uyğunluğunu müəyyənləşdirmək məqsədilə həmin akta daxil olduğu tarixdən 15 iş günü müddətində baxılmasını təmin edir.".

4. 7.2-ci maddənin birinci (hər iki halda), ikinci və dördüncü cümlələrində "gün" sözü "iş günü" sözləri ilə, üçüncü cümləsində isə "gündən" sözü "iş günündən" sözləri ilə əvəz edilsin.

5. 8-ci maddə üzrə:

5.1. 8.1-ci maddədə "15 gün" sözləri "5 iş günü" sözləri ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 8.1-1-ci maddə əlavə edilsin:

"8.1-1. İnzibati nəzarət icraatının həyata keçirilməsi zamanı inzibati nəzarəti həyata keçirən orqan dövlət orqanlarına (qurumlarına) sorğular verə və məlumatlar ala bilər.";

5.3. 8.2-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"8.2. İnzibati nəzarəti həyata keçirən orqan inzibati nəzarət icraatı zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halların hərtərəfli, tam və obyektiv öyrənilməsi üçün yerində araşdırma aparmaq və bələdiyyələrin vəzifəli şəxslərindən, bələdiyyə qulluqçularından və digər aidiyyəti şəxslərdən bununla bağlı yazılı şəkildə məlumatlar, arayışlar almaq hüququna malikdir.";

5.4. 8.5-ci və 8.6-cı maddələrdə "gün" sözü "iş günü" sözləri ilə əvəz edilsin.

6. 9-cu maddədə "sonunda" sözü "yekunu üzrə" sözləri ilə əvəz edilsin.

7. 10-cu maddə üzrə:

7.1. 10.1-ci maddəyə "ümumiləşdirmələr" sözündən əvvəl "təhlil və" sözləri əlavə edilsin;

7.2. 10.2-ci maddəyə "tövsiyələr" sözündən sonra "alındığı gündən 5 iş günü ərzində" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2020-ci il.*
N143-VIQD

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N4, maddə 323, N12, maddə 1034; 2007, N11, maddə 1105, N12, maddə 1246; 2009, N7, maddə 533, N8, maddə 627, N10, maddə 773, N12, maddələr 983, 988; 2010, N2, maddə 83, N4, maddə 292, N11, maddə 966; 2011, N1, maddə 18, N2, maddə 85, N4, maddə 281, N6, maddə 497, N10, maddə 894, N11, maddə 993; 2012, N10, maddə 950; 2014, N6, maddə 627, N7, maddə 820, N9, maddə 1029; 2016, N1, maddə 77; 2017, N2, maddə 184, N10, maddə 1784; 2018, N6, maddə 1205, N7 (I kitab), maddə 1480; 2019, N3, maddə 431, N5, maddə 860, N6, maddə 1044, N12, maddə 1927) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.29-cu yarımbəndinə "hallarının" sözündən sonra ", onları yaradan səbəb və şəraitin" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 10 iyul 2020-ci il.*
*N1102*

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N12, maddə 744; 2000, N1, maddə 34; 2001, N10, maddə 640; 2002, N8, maddə 478; 2006, N7, maddələr 590, 593; 2009, N11, maddə 888; 2010, N7, maddə 610; 2015, N1, maddə 16, N8, maddə 915) 7-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"7. Müəyyən edilsin ki:

7.1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 93-3-cü maddəsinin altıncı hissəsinin ikinci cümləsində, 107-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 110-cu maddəsinin birinci hissəsinin beşinci abzasında, 112-ci maddəsinin doqquzuncu hissəsinin dördüncü - altıncı abzaslarında, onuncu hissəsinin ikinci - dördüncü, altıncı və yeddinci abzaslarında, 114-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

7.2. həmin Qanunun 107-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

7.3. həmin Qanunun 109-cu maddəsinin dördüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

7.4. həmin Qanunun 90-cı maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini maliyyə məsələləri üzrə Azərbaycan Respublikasının Nazirlər Kabineti, maddi-texniki təminat məsələləri üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, altıncı hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini isə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

7.5. həmin Qanunun 55-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 86-cı maddəsinin birinci hissəsində (məhkəmələrin maliyyə və digər maddi-texniki təminatı üzrə) və ikinci hissəsinin ikinci cümləsində (yalnız birinci instansiya məhkəmələrində həmin maddədə qeyd edilən sahələr üzrə işin təşkili vəziyyətinin yoxlanılması üzrə), 88-ci maddəsinin dördüncü hissəsində, 97-1-ci maddəsinin birinci hissəsinin birinci cümləsində (yalnız birinci instansiya məhkəmələrinə münasibətdə) və ikinci hissəsində, 107-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

7.6. həmin Qanunun 64-cü

maddəsinin ikinci hissəsində, 80-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 86-cı maddəsinin adında, birinci hissəsində, ikinci hissəsinin birinci və ikinci cümlələrində, üçüncü və dördüncü hissələrində, 87-ci maddəsinin ikinci və üçüncü hissələrində, 88-ci maddəsinin dördüncü hissəsində, 91-ci maddəsində, 97-1-ci maddəsinin birinci hissəsinin birinci cümləsində və ikinci hissəsində, 107-ci maddəsinin ikinci hissəsində, 112-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və altıncı hissəsində, 114-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

7.7. həmin Qanunun 108-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini rayon (şəhər) icra hakimiyyəti orqanları həyata keçirirlər;

7.8. həmin Qanunun 113-cü maddəsinin üçüncü hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

7.9. həmin Qanunun 88-ci maddəsinin beşinci hissəsində müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 10 iyul 2020-ci il.*
*N1106*

## "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 23.4-cü maddəsinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.2-ci, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 8 və 15-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin sorğusu əsasında "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 23.4-cü maddəsinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.2-ci, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 8 və 15-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublika-

sının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsi, mütəxəssislər Azərbaycan Respublikasının Ali Məhkəməsi və Bakı Apellyasiya Məhkəməsi tərəfindən təqdim edilmiş yazılı çıxışları, ekspert Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru Mayis Əliyevin yazılı rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti (bundan sonra - Nazirlər Kabineti) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Əmək pensiyaları haqqında" Qanun) 1.0.2-ci maddəsi, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Sosial sığorta haqqında" Qanun) 8-ci maddəsinin beşinci hissəsi və 15-ci maddəsi, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra -"Diplomatik xidmət haqqında" Qanun) 26.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin əmək pensiyaları hesablanarkən məcburi dövlət sosial sığortasına cəlb edilməyən vəsaitlərin nəzərə alınmasının mümkünlüyü məsələsinə aydınlıq gətirilməsi məqsədilə "Diplomatik xidmət haqqında" Qanunun 23.4-cü maddəsinin şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, "Diplomatik xidmət haqqında" Qanunun 23.4-cü maddəsinə uyğun olaraq, rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əməkhaqqından sosial sığorta ödənişləri həyata keçirilmir, vergi tutulması müvafiq qanunvericiliklə tənzimlənir. Bununla yanaşı, həmin Qanunun 23.3-cü maddəsinə görə, rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında aldıqları əməkhaqqının 50 faizi saxlanılır.

Eyni zamanda, "Sosial sığorta haqqında" Qanunun 8-ci maddəsinə müvafiq olaraq, əmək pensiyalarının hesablanması zamanı nəzərə alınan sığortaolunanın sığorta stajı sığortaolunanın xeyrinə məcburi dövlət sosial sığorta haqqı ödənilən əmək fəaliyyəti dövrlərinin ümumi müddətidir. Həmin Qanunun 15-ci maddəsinin 17-ci abzasına əsasən isə yuxarıda qeyd olunan şəxslərin xarici ölkədə aldığı əməkhaqqı sosial sığorta haqqı hesablanmayan gəlir növlərinə aid edilmişdir.

Sorğuverənin qənaətinə görə, rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarına münasibətdə Azərbaycan Respublikasında dövlət qulluqçuları üçün müəyyən edilmiş məvacibdən daha yuxarı əməkhaqqı müvafiq xarici ölkədə sosial-iqtisadi vəziyyətin və maddi-məişət şəraitinin fərqli və spesifik xüsusiyyətləri və s. meyarlar nəzərə alınmaqla müəyyən edilmişdir. Qanunverici bu səbəbdən qeyd edilən şəxslərin əməkhaqlarını Azərbaycan Respublikasında təyin edilən əmək pensiyasının hesablanması zamanı əsas götürülən sosial sığorta haqlarının tutulmasından azad etmişdir.

Sorğu onunla əsaslandırılmışdır ki, pensiyanın təyin olunması və hesablanması üçün vacib şərtlərdən biri şəxsin işlədiyi dövr ərzində aldığı məvacibdən məcburi sosial sığorta haqqını ödəməsidir və məhz məcburi dövlət sosial sığorta haqları şəxsin gələcək pensiya təminatının məbləğini formalaşdırır. Lakin məhkəmələr tərəfindən bir çox hallarda məsələyə fərqli mövqedən yanaşılaraq rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin əmək pensiyalarının xarici ölkədə aldıqları əməkhaqqı əsasında hesablanması ilə bağlı iddiaları təmin edilir və bu

qərarlar sosial sığorta haqlarından azadolmanın həmin şəxslərin iradəsindən asılı olmadan qanunvericiliyin tələblərindən irəli gəlməsi ilə əsaslandırılır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıları qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 38-ci maddəsinin I hissəsinə müvafiq olaraq, hər kəsin sosial təminat hüququ vardır.

Sosial təminat dövlətin sosial funksiyası ilə bağlıdır və əsasən özünü saxlamaq qabiliyyəti olmayan, sosial müdafiəyə ehtiyacı olan şəxsə öz yaşayışını təmin etmək üçün dövlət tərəfindən müəyyən məbləğdə pul vəsaitinin ödənilməsində və ya digər güzəştlərin verilməsində ifadə olunur.

Konstitusiya Məhkəməsi Plenumunun "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.4-cü maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2014-cü il 14 noyabr tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə görə, Konstitusiyada əksini tapan sosial təminat hüququ Əsas Qanunun 38-ci maddəsinin III hissəsinə müvafiq olaraq qanunla müəyyən edilmiş hallarda və hədlərdə pensiya almaq hüququnu da ehtiva edir. Pensiya hüququ sosial təminatın tərkib hissəsi və onun qanunla müəyyən olunmuş ən mühüm formasıdır. Hər kəsin pensiya hüququ sosial təminat hüququnun subyektiv hüquq növü kimi çıxış edir.

Azərbaycan Respublikasında vətəndaşların əmək pensiyası hüquqlarının yaranmasının əsasları, bu hüquqların həyata keçirilməsi qaydaları və əmək pensiyası təminatı sistemi "Əmək pensiyaları haqqında" Qanunla müəyyən edilmişdir.

Həmin Qanunun 1.0.1-ci maddəsinə əsasən, əmək pensiyası - bu Qanunla nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və məcburi dövlət sosial sığortaolunanların onlara əmək pensiyası təyin olunduqdan əvvəl aldıqları əməkhaqqı və digər gəlirlərin, yaxud sığortaolunanların ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara aylıq pul ödənişidir. Maddənin məzmunundan göründüyü kimi, sığortaolunanın əmək pensiyası ona pensiya təyin olunduqdan əvvəl aldığı əməkhaqqı və digər gəlirlərin kompensasiyası məqsədilə verilən pul ödənişidir.

"Əmək pensiyaları haqqında" Qanunun bir çox normaları ilə sosial sığorta sahəsində yaranan münasibətləri, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını tənzimləyən "Sosial sığorta haqqında" Qanunda nəzərdə tutulmuş anlayışlar bir-birilə bağlıdır.

Pensiya təminatı sistemi sosial həmrəylik və sosial sığorta prinsipləri əsasında qurulmuşdur. Pensiya qanunvericiliyinin əsas məqsədi pensiya təminatı sisteminin fəaliyyətində bu prinsiplərin gücləndirilməsi və qazanılan pensiya hüquqları ilə toplanan sığorta vəsaitləri arasında tarazılığın təmin edilməsindən ibarətdir. "Sosial sığorta haqqında" Qanunun 3-cü maddəsinə əsasən, sosial sığorta subyektlərinin hüquq bərabərliyi və dövlət sosial sığortasının məcburiliyi sosial sığortanın əsas prinsipləri kimi müəyyən edilmişdir.

Ümumiyyətlə, sosial sığorta dedikdə, qanunla nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əməkhaqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat forması nəzərdə tutulur və onun məcburi dövlət sosial sığortası və könüllü sosial sığorta formaları fərqləndirilir. Məcburi dövlət sosial sığortası sığortaedənlər tərəfindən bütün əmək müqaviləsi üzrə işləyənlər barəsində həyata keçirilir.

Sığortaolunanların pensiya hüququ sosial sığorta hadisəsinin baş verməsi nəticəsində yaranır. Sosial sığorta hadisəsi elə bir haldır ki, onun baş verməsi ilə sığortaolunanın sığorta təşkilatından sığorta ödəməsi almaq hüququ yaranır. Məcburi dövlət sosial sığortası qanunda nəzərdə tutulan sığorta hadisələri üzrə tətbiq edilir.

Qanunvericilikdə əmək pensiyalarının təyin edilməsi üçün müəyyən edilmiş zəruri şərtlərdən biri sığortaolunanın sığorta stajının olmasıdır. "Əmək pensiyaları haqqında" Qanunun 1.0.2-ci maddəsinə görə, sosial sığorta stajı əmək pensiyası hüququnun müəyyən edilməsi zamanı nəzərə alınan iş və ya digər fəaliyyət dövrlərinin (müvafiq icra hakimiyyəti orqanına məcburi dövlət sosial sığorta haqları ödəmək şərtilə) və eləcə də müvafiq qanunvericiliklə sığorta stajına daxil edilən digər dövrlərin məcmusudur. "Sosial sığorta

haqqında" Qanunun 8-ci maddəsində də sığortaolunanın sığorta stajı sığortaolunanın xeyrinə məcburi dövlət sosial sığorta haqqı ödənilən əmək fəaliyyəti dövrlərinin ümumi müddəti kimi müəyyən edilmişdir. Sığorta stajı müvafiq icra hakimiyyəti orqanı tərəfindən məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə verilən sənədlə təsdiq olunur.

Göründüyü kimi, hər iki Qanun sosial sığorta stajını əmək pensiyası hüququnun müəyyən edilməsi zamanı nəzərə alınan iş və ya digər fəaliyyət dövrləri ilə əlaqələndirmiş və həmin iş dövrlərinin nəzərə alınması üçün məhz məcburi dövlət sosial sığorta haqlarını ödəmək şərtini müəyyən etmişdir.

Sığortalamaya görə sığortaçıya verilən pul vəsaiti olan məcburi dövlət sosial sığorta haqqı müəyyən gəlir növləri istisna olunmaqla əmək ödənişinin və gəlirlərin bütün növləri üzrə hesablanır. "Sosial sığorta haqqında" Qanunun 14.2-ci maddəsinə görə, məcburi dövlət sosial sığortasında sığorta haqqı əmək ödənişinə (gəlirə) nisbətdə faizlə müəyyən edilir, sığortaedənin və sığortaolunanın vəsaiti hesabına ödənilir.

Beləliklə, pensiya təminatı sisteminin hər bir iştirakçısının ödədiyi sosial sığorta haqlarının onun alacağı pensiya məbləğinə mütənasib olmasının təmin edilməsi qüvvədə olan pensiya qanunvericiliyinin əsas məqsədlərindən biridir.

Lakin qanunverici bir sıra gəlir növlərinin spesifik xüsusiyyətlərini, onların bəzən birdəfəlik ödəmə şəklində olmasını və ya müvəqqəti xarakter daşımasını, yaxud müəyyən şəraitə uyğun olaraq ödənilməsini və s. halları nəzərə alaraq sosial sığorta haqqı hesablanmayan gəlir növlərini müəyyən etmişdir.

Qeyd olunduğu kimi, belə gəlir növlərindən biri də "Diplomatik xidmət haqqında" Qanunun 23.4-cü maddəsinə əsasən rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əməkhaqqıdır. Bu şəxslərin əməyinin ödənilməsi, habelə maddi və maliyyə təminatı olduqları dövlətin sosial-iqtisadi və maddi-məişət şəraiti nəzərə alınmaqla həyata keçirilir. Eləcə də, həmin Qanunun 26.1-ci maddəsinə uyğun olaraq, diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin pensiya təminatı və sosial müdafiəsi Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, sorğuda qaldırılan məsələ ilə bağlı məhz həmin şəxslərə münasibətdə məcburi dövlət sosial sığortasının tətbiq edilməsinə dair qanunvericinin mövqeyini əks etdirən bir sıra hüquqi normalar nəzərdən keçirilməlidir.

"Sosial sığorta haqqında" Qanunun 12-ci maddəsində məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslərin dairəsi müəyyən edilmişdir. Həmin maddədə rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşları və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslər sırasına aid edilməmişdir.

Digər tərəfdən, "Sosial sığorta haqqında" Qanunun 15-ci maddəsində məcburi dövlət sosial sığorta haqqı hesablanmayan gəlir növləri sadalanmışdır. Həmin maddə ilə də rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin və mühafizəsi zəruri hesab edilən Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsini həyata keçirən hərbi qulluqçuların xarici ölkədə aldığı əməkhaqqı sosial sığorta haqqı hesablanmayan gəlir növlərinə aid edilmişdir.

Həmçinin "Əmək pensiyaları haqqında" Qanunun 1.0.2-ci maddəsinə uyğun olaraq, sığorta stajına daxil edilən digər dövrlərin siyahısı həmin Qanunun 21-ci maddəsində müəyyən edilmişdir. Qeyd edilən siyahıda isə rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşları və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə əməkhaqqı aldığı dövrlər nəzərdə tutulmamışdır.

Qeyd edilən hüquq normalarının qarşılıqlı təhlili belə

nəticəyə gəlməyə əsas verir ki, yalnız məcburi dövlət sosial sığorta haqqı ödənilən iş və ya əmək fəaliyyəti dövrləri, eləcə də qanunvericilikdə siyahısı müəyyən edilmiş digər dövrlər əmək pensiyasına hüquq verən sosial sığorta stajına daxil edilir.

Konstitusiya Məhkəməsinin Plenumu "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.1, 1.0.2, 1.0.5 və 20.14-cü maddələrinin şərh edilməsinə dair" 2020-ci il 15 may tarixli Qərarında da qeyd etmişdir ki, pensiya təminatı sisteminin məhz sosial sığorta prinsipləri və qazanılan pensiya hüquqları ilə şəxsin fərdi hesabında qeydə alınan vəsaitlər arasında tarazlaşdırma mexanizmləri əsasında qurulması baxımından "Əmək pensiyaları haqqında" Qanunun 1.0.1, 1.0.2 və 1.0.5-ci maddələrinin tələblərinə görə, sığortaolunanlara pensiya təyin edilərkən və ya təyin edildikdən sonra yenidən hesablanarkən xidmət etdiyi, işlədiyi və (və ya) qulluq keçdiyi dövrdə almadıqları və ya məcburi dövlət sosial sığortasına cəlb edilməyən əməkhaqqının, təminat xərcliyinin, dövlət məvacibinin və ya onlara edilən əlavələrin əsas götürülməsi qanunun tələblərinə uyğun deyildir.

Lakin göstərilənlərlə yanaşı qeyd olunmalıdır ki, mülki prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq, qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır. Bu baxımdan müxtəlif dövrlərdə pensiya qanunvericiliyində pensiya təyin edilməsi zamanı əməkhaqlarının nəzərə alınması üçün məcburi dövlət sosial sığorta haqqının ödənilməsinin məcburiliyi ilə bağlı müxtəlif yanaşmaların olduğunu nəzərə alaraq münasibətlərin yarandığı zaman qüvvədə olan müvafiq qanunvericilik normaları tətbiq edilməlidir. Belə ki, Azərbaycan Respublikasının 2007-ci il 6 mart tarixli Qanunu ilə qüvvədən düşmüş "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanununda (bundan sonra - "Vətəndaşların pensiya təminatı haqqında" Qanun) məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı müxtəlif dövrlərdə iki fərqli yanaşma mövcud olmuşdur. Həmin Qanunun iş stajına daxil edilən əmək fəaliyyətinin növləri adlanan 67-ci maddəsinə Azərbaycan Respublikasının 2002-ci il 3 dekabr tarixli Qanunu ilə əlavə edilmiş səkkizinci hissəyə görə, əmək (sosial sığorta) pensiyasının təyin edilməsi üçün qanunla müəyyən edilmiş hallar istisna olmaqla, 1 yanvar 2002-ci il tarixdən əmək stajına məcburi dövlət sosial sığorta haqlarının ödənildiyi əmək fəaliyyəti müddəti daxildir. 1 yanvar 2002-ci ilədək əmək fəaliyyəti göstərən şəxslərə pensiya təyin olunması üçün əmək stajı bu maddənin birinci-yeddinci hissələrinə müvafiq olaraq hesablanır. Göründüyü kimi, hazırda qüvvədə olan "Əmək pensiyaları haqqında" Qanundan fərqli olaraq, "Vətəndaşların pensiya təminatı haqqında" Qanunun 2002-ci ildən qüvvəyə minmiş 67-ci maddəsinin səkkizinci hissəsində qanunla müəyyən edilmiş hallar istisna olmaqla, məcburi dövlət sosial sığorta haqlarının ödənildiyi əmək fəaliyyəti müddətinin əmək stajına daxil edilməsi müəyyən edilmişdir. Bu maddədə nəzərdə tutulmuş "qanunla müəyyən edilmiş hallar istisna olmaqla" ifadəsi isə qanunda nəzərdə tutulmuş hallarda məcburi dövlət sosial sığorta haqqı ödənilməyən və ya ödənilməsindən azad edilən, lakin əmək stajına daxil edilən əmək fəaliyyəti müddətini ehtiva edir.

Yuxarıda göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qüvvədə olan "Əmək pensiyaları haqqında" Qanunun 1.0.2 və 21-ci maddələrinin, "Sosial sığorta haqqında" Qanunun 8, 12 və 15-ci maddələrinin, "Diplomatik xidmət haqqında" Qanunun 23.4-cü maddəsinin tələblərinə uyğun olaraq, rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əməkhaqqından sosial sığorta ödənişləri həyata keçirilmədiyindən və onların xarici ölkədə əməkhaqqı aldığı dövrlər sosial sığorta stajına daxil edilmədiyindən, əmək pensiyalarının hesablanması zamanı həmin gəlirlər nəzərə alına bilməz.

Konstitusiya Məhkəməsinin Plenumu, eyni zamanda, hesab edir ki, rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət

orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və Konstitusiyanın 12-ci maddəsinin tələblərinə uyğun olaraq layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə həmin şəxslərə pensiya təyin edilməsi zamanı əsas götürülən gəlirlər yenidən nəzərdən keçirilməli və onların pensiya təminatı ilə bağlı məsələlər gələcəkdə qanunvericilik qaydasında tənzimlənərək öz həllini tapmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.2 və 21-ci maddələrinin, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 8, 12 və 15-ci maddələrinin, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 23.4-cü maddəsinin tələblərinə uyğun olaraq, rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əməkhaqqından sosial sığorta ödənişləri həyata keçirilmədiyindən və onların xarici ölkədə əməkhaqqı aldığı dövrlər sosial sığorta stajına daxil edilmədiyindən, əmək pensiyalarının hesablanması zamanı həmin gəlirlər nəzərə alınmır.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 6 iyul 2020-ci il*

## Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlə-

rin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin sədri İ.Nağıyevin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri S.Mirzəyevin, mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri S.Hacıyevin yazılı mülahizələrini, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - Mülki Prosessual Məcəllə) 403.2-ci maddəsinin şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 7 fevral 2018-ci il tarixli qətnaməsi ilə iddiaçı C.Ağayevin Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı şəhər Ərazi İdarəsinə və M.Sarıyevə qarşı alğı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və torpağa mülkiyyət hüququna dair çıxarışın ləğv edilməsi barədə iddiası təmin edilməmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 19 dekabr 2019-cu il tarixli qətnaməsi ilə C.Ağayevin apellyasiya şikayəti təmin edilmiş, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin qətnaməsi ləğv olunaraq iş üzrə yeni qətnamə qəbul olunmuş, iddia təmin edilərək cavabdehlər arasında bağlanmış alğı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və həmin müqaviləyə əsasən verilmiş çıxarışın ləğv edilməsi qət edilmişdir.

Bakı Apellyasiya Məhkəməsinin qətnaməsindən C.Babayeva işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxs qismində şikayət vermişdir. İddiaçı C.Ağayev Mülki Prosessual Məcəllənin 403.2-ci maddəsinə istinad edərək C.Babayevanın kassasiya şikayəti vermək hüququnun olmadığını bildirmişdir. C.Babayevanın vəkili isə iddiaçının bu dəlilinə cavab olaraq göstərmişdir ki, həmin norma Azərbaycan Respublikasının Konstitusiyasına (bundan sonra - Konstitusiya) və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyaya (bundan sonra - Konvensiya) zidd olmaqla onların birbaşa kassasiya şikayəti vermək hüquqlarını məhdudlaşdırır və məhkəmə tərəfindən Konstitusiyanın müvafiq normaları və Konvensiyanın 6-cı maddəsi tətbiq edilməklə kassasiya şikayəti mümkün hesab edilməlidir.

Kassasiya şikayətinin mümkünlüyü məsələsini araşdıran məhkəmə tərəflərin dəlillərini müzakirə edərək iş üzrə tətbiq edilməli olan Mülki Prosessual Məcəllənin 403.2-ci maddəsinin şərh edilməsinə zərurət olduğu qənaətinə gəlmişdir.

Müraciətdə göstərilmişdir ki, Mülki Prosessual Məcəllənin 403-cü maddəsində apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarından kassasiya şikayəti vermək hüququ olan şəxslərin dairəsi müəyyən edilmişdir. Həmin Məcəllənin 403.1-ci maddəsinə əsasən, apellyasiya instansiyası məhkəməsinin qətnamələrindən və qərardadlarından, tələblərinin təmin olunmadığı hallarda tərəflər, üçüncü şəxslər, xüsusi icraat işləri üzrə isə ərizəçi və maraqlı şəxslər şikayət vermək hüququna malikdir.

Eyni zamanda, Məcəllənin 403.2-ci maddəsində işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin həmin məhkəmə aktlarını kassasiya qaydasında mübahisələndirməsinin fərqli proseduru müəyyən edilmişdir. Bu maddəyə görə, Azərbaycan Respublikası Ali Məhkəməsinin (bundan sonra - Ali Məhkəmə) sədri işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadından təqdimat verə bilər.

Məcəllənin apellyasiya şikayəti vermək hüququ olan şəxslərin dairəsini müəyyən edən 357-ci maddəsi isə işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qətnamə onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslərin birinci instansiya məhkəmələri tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərardadlardan apellyasiya şikayəti vermək hüquqlarını təsbit etmişdir.

Müraciətedən hesab edir ki, birinci instansiya məhkəməsinin aktlarından şikayət verilməsi qaydasından fərqli olaraq,

Mülki Prosessual Məcəllənin 403.2-ci maddəsi ilə işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin apellyasiya məhkəmələrinin aktlarından birbaşa kassasiya şikayəti vermək hüququ məhdudlaşdırılmış və onların hüquqları pozulmuş olduğu halda belə kassasiya icraatının yalnız Ali Məhkəmənin sədrinin təqdimatı ilə mümkün olduğu müəyyən edilmişdir.

Bakı Apellyasiya Məhkəməsinin qənaətinə görə, həmin qayda şəxsən məhkəməyə müraciət etmək və hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilməsi ilə bağlı Konstitusiyada təsbit olunmuş fundamental hüquqların əsassız pozulmasına gətirib çıxara bilər.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar, ilk növbədə, hər bir şəxsin ayrılmaz hüququ olan məhkəmə müdafiəsi hüququ, bu hüququn həyata keçirilməsində qanunverici tərəfindən müəyyən ağlabatan prosessual məhdudiyyətlərin qoyulmasının mümkünlüyü və bu zaman ədalətli balansın qorunmasının zəruriliyi ilə bağlı Konstitusiya və beynəlxalq hüquqi aktlarda, eləcə də həmin hüququn reallaşdırılmasının əsas qaydalarını müəyyən edən Mülki Prosessual Məcəllədə təsbit olunmuş bir sıra müddəaların və Plenumun qərarlarında əks olunmuş hüquqi mövqelərin nəzərdən keçirilməsini zəruri hesab edir.

Hüquqi və demokratik dövlətə xas olan dəyərlərə əsaslanan Əsas Qanun insan və vətəndaş hüquq və azadlıqlarını təsbit etməklə yanaşı, onların qorunmasına və müdafiəsinə yönəlmiş təminatları da müəyyənləşdirmişdir.

Məhz bundan irəli gələrək, Konstitusiyada hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat hüququ təsbit edilmişdir.

Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüququ hər kəsin məhkəməyə müraciət etmək hüququ ilə yanaşı, işinin ədalətli araşdırılmasını, eləcə də hüquq və azadlıqları pozulduğu halda məhkəmə aktlarından qanunvericiliklə müəyyən edilmiş qaydada yuxarı instansiya məhkəmələrinə şikayət vermək hüququnu ehtiva edir.

Konstitusiya Məhkəməsi Plenumunun bu hüquqla bağlı formalaşdırdığı hüquqi mövqeyə görə, məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi, öz növbəsində, pozulmuş hüquq və azadlıqları qanunvericilikdə nəzərdə tutulan hədlər çərçivəsində səmərəli müdafiə və bərpa edə bilən ədalət mühakiməsinin həyata keçirilməsini şərtləndirir. Ədalət mühakiməsi vasitəsi ilə insan hüquq və azadlıqlarının təminatı sisteminin universal xarakteri, həmçinin şəxsin qanunsuz və əsassız məhkəmə qərarlarından müdafiə olunması məqsədilə müvafiq məhkəmələrə şikayət etmək imkanlarını əhatə edir. Bu hüquq məhkəmə prosesinin bütün mərhələlərinə aid olmaqla, məhkəmə müdafiəsinin yalnız birinci instansiyada təmin olunmasını deyil, qanunla nəzərdə tutulmuş hallarda apellyasiya və kassasiya instansiyalarında da həyata keçirilməsini nəzərdə tutur ("Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 420-ci maddəsinin şərh edilməsinə dair" 2012-ci il 28 fevral tarixli və "Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair" 2017-ci il 12 aprel tarixli Qərarlar).

Qeyd olunmalıdır ki, Konstitusiyanın 60-cı maddəsi müxtəlif məhkəmə instansiyalarına verilmiş şikayətlərə (müraciətlərə) baxılmasının prosessual qaydalarına dəqiq riayət olunmasını da özündə ehtiva edir. Bu məqsədlə qanunverici mülki işlər üzrə məhkəmə aktlarının ədalətli və qanuni olmasını təmin etmək üçün Mülki Prosessual Məcəllədə məhkəmənin, işdə iştirak edən şəxslərin və prosesin digər iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir, mülki mühakimə icraatında prosessual qaydaları tənzim edir. Məcəllə mülki məhkəmə icraatının ümumi qaydalarını, habelə icraatın prinsip və şərtlərini müəyyən etməklə yanaşı, ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən mülki icraatın aparılması, işin ədalətli həllinə yönəlmiş qaydalara riayət olunmaqla son nəticədə məhkəmə aktlarının qəbulunu, onlardan şikayət verilməsi və bu şikayətlərə baxılması qaydasını tənzimləyir.

Mülki Prosessual Məcəllənin normaları nəinki mülki məhkəmə icraatının gedişatını, həmçinin mülki prosessual münasibətlərin hər bir

iştirakçısı tərəfindən müvafiq hərəkətlərin aparılması və onların mümkünlüyünü müəyyən edir (Konstitusiya Məhkəməsi Plenumunun İ.Şabanovanın şikayəti ilə əlaqədar 2012-ci il 27 avqust tarixli Qərarı).

Məcəllənin mülki məhkəmə icraatının vəzifələrini təsbit edən 2-ci maddəsinə görə, mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Konstitusiyadan, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır. Məcəllənin 4.1-ci maddəsinə əsasən isə bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Göründüyü kimi, bu maddələrdə fiziki və hüquqi şəxslərin hər cür mənafe və maraqlarının müdafiəsindən deyil, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn, başqa sözlə, qanunla qorunan mənafe və maraqlardan bəhs olunur.

Həmçinin ümumi hüquq nəzəriyyəsində, eləcə də beynəlxalq hüquqi aktlarda bu hüququn, müəyyən hallar nəzərə alınaraq, məhdudlaşdırılmasına yol verilir. Belə ki, məhkəmə müdafiəsi hüququnun vacibliyinə baxmayaraq, o mütləq xarakter daşımır və qanunvericilik tərəfindən müəyyən edilmiş hədlərdə konkret məhdudiyyətlərə məruz qala bilər.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra - Avropa Məhkəməsi) də bir sıra qərarlarında yuxarı instansiya məhkəmələrində aparılan icraatın mümkünlüyü və hədlərinin qanuni məhdudiyyətlərə məruz qala bilməsini yolverilən hesab etmişdir. Golder Birləşmiş Krallığa qarşı iş üzrə Qərarında Avropa Məhkəməsi göstərmişdir ki, məhkəməyə əlçatanlıq hüququ mütləq deyil və dolayı şəkildə yol verilən məhdudiyyətlərə məruz qala bilər. Bu xüsusilə də şikayətin qəbuledilənlik şərtlərinə aiddir, çünki bu məsələ təbiət etibarı ilə, həmin sahədə müəyyən mülahizə sərbəstliyinə malik olan Dövlət tərəfindən tənzimlənmə tələb edir (Luordo İtaliyaya qarşı iş üzrə 2003-cü il 17 oktyabr tarixli Qərar).

Lakin məhkəmə müdafiəsi hüququnu məhdudlaşdıran tədbirlər Konstitusiyanın 60-cı maddəsinin I hissəsinin və 71-ci maddəsinin II hissəsinin, habelə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3-cü maddəsinin müddəaları baxımından legitim məqsədlərə nail olmaq üçün tətbiq edilməli, mütənasiblik meyarına cavab verərək onun əsas mahiyyətinə toxunmamalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2015-ci il 22 may tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlərlə bağlı bir daha qeyd edir ki, hüquq və vəzifələrin həcminin prosessual qaydalar çərçivəsində məhdudlaşdırılması hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə, məhkəmə icraatı zamanı işdə iştirak edən şəxslərin qarşılaşa biləcəkləri hüquqi qeyri-müəyyənliyin aradan qaldırılmasına, ədalət mühakiməsinin daha səmərəli və ədalətli həyata keçirilməsinə xidmət edir. Eyni zamanda yalnız qanunvericilik səviyyəsində müəyyən oluna biləcək belə məhdudiyyətlər Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları ləğv etməməlidir. Bu məhdudiyyətlər hər hansı şəxsin iradəsindən asılı olmayaraq, müvafiq hüquqa mütənasib şəkildə qanunvericinin müəyyən etdiyi hədlər çərçivəsində düzgün tətbiq edilməlidir.

Mülki Prosessual Məcəllədə məhkəmə müdafiəsi hüququnu məhdudlaşdıran şikayətin mümkünlüyü, prosessual müddətlər, məhkəmə qərarlarından şikayət verə biləcək konkret şəxslərin dairəsi və s. amillər nəzərdə tutulmuşdur. Belə məhdudlaşdırıcı tədbirlərdən biri də birinci və apellyasiya instansiyası məhkəmələrinin aktlarından şikayət vermək hüququ olan şəxslərin dairəsinin müəyyən edilməsidir. Bir qayda olaraq, məhkəmə aktlarından işdə iştirak edən şəxslər şikayət vermək hüququna malikdir. Lakin qanunverici qəbul edilmiş məhkəmə aktı ilə işdə iştirak etməyə cəlb edilməyən şəxslərin hüquqlarının pozulma ehtimalının olduğunu və şikayətə baxan məhkəmə instansiyasının spesifik xüsusiyyətlərini nəzərə alaraq onların işə

cəlb edilməsinin fərqli qaydalarını müəyyən etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında işdə iştirak etməyə cəlb olunmayan və məhkəmə qərarı ilə hüquqlarına və qanuni maraqlarına toxunan şəxsin hüquqi statusuna aydınlıq gətirmiş, onların pozulmuş hüquq və azadlıqlarının bərpası üçün səmərəli vasitələrlə təmin edilməsinin vacibliyini vurğulamışdır.

İşdə iştirak etməyə cəlb olunmayan və məhkəmənin qərarı ilə hüquqlarına və qanuni maraqlarına toxunan şəxsin statusunun səciyyəvi əlamətlərinə onun məhkəmədə baxılan işə tərəf qismində cəlb edilməməsi, iş üzrə qəbul edilmiş məhkəmə qərarının onun hüquqlarına və qanuni maraqlarına toxunması, öz hüquqlarının və qanuni maraqlarının müdafiəsində həm maddi, həm də prosessual marağının olması aiddir (K.Maraevin şikayəti üzrə 2016-cı il 29 iyul tarixli Qərar).

İşdə iştirak etməyə cəlb olunmayan şəxslərin hüquq və vəzifələrinə dair məsələnin onun iştirakı olmadan məhkəmə tərəfindən həll edilməsi məhkəmə araşdırmasının ədalətli olmasını, hər kəsin hüquq və azadlıqlarına dair mübahisələrə müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ağlabatan müddətdə baxılmasını, işinin ədalətli və açıq araşdırılması hüququnun təmin edilməsini şübhə altına alır. Bu baxımdan, işə cəlb edilməyən şəxsin prosessual fəaliyyəti onun iştirakı olmadan qəbul edilmiş məhkəmə qərarı ilə pozulmuş hüquqlarının bərpa edilməsi məqsədinə xidmət etməlidir.

Hər bir halda işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin həmin aktlardan verdikləri şikayətdə (müraciətdə) qəbul edilən qətnamə ilə onların hüquq və vəzifələrinin pozulmasının nədən ibarət olması, yaxud hansı maraq və ya mənafelərinə toxunması əsaslandırılmalıdır. Eyni zamanda, bu şəxslərin hüquqlarının bərpası üçün nəzərdə tutulmuş prosessual təminat həyata keçirilərkən qanunvericilikdə müəyyən edilmiş məhkəmə sisteminin mahiyyətinə, xüsusiyyətlərinə xələl gətirilməməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə hüquq və vəzifələrinə, maraqlarına toxunan şəxslərin apellyasiya və kassasiya şikayəti vermələri üçün qanunverici tərəfindən fərqli prosedur qaydalarının müəyyən edilməsinin anlaşılan olmamasına dair müraciətedənin dəlilinə aydınlıq gətirilməsi məqsədi ilə apellyasiya və kassasiya icraatının mahiyyəti, məqsədi və xüsusiyyətlərinə, bu məhkəmə instansiyalarında işə baxmanın hədlərinə nəzər yetirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunduğu kimi, Mülki Prosessual Məcəllənin 357-ci maddəsində birinci instansiya məhkəməsi tərəfindən qəbul edilmiş qətnamə və qərardadlardan apellyasiya şikayəti vermək hüququ olan subyektlərin dairəsi göstərilmişdir. Məcəllənin 357.2-ci maddəsinə əsasən, apellyasiya şikayəti vermək hüququna işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qətnamə onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslər də malikdir.

Apellyasiya şikayəti verilməsi və onun mümkün hesab edilməsi üçün prosessual əsaslar olmalıdır. Belə ki, apellyasiya şikayətinin mümkünlüyünü araşdıran məhkəmə həmin şəxsin müvafiq prosessual hüquqa malik olub-olmamasını, qanunvericiliyin tələblərinə əməl edib-etməməsini yoxlayır. Mülki Prosessual Məcəllənin 366.1 və 366.2-ci maddələrinə uyğun olaraq, apellyasiya instansiyası məhkəməsi iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində apellyasiyanın mümkünlüyünü yoxlayır. Buraya işə apellyasiya qaydasında baxılmaq üçün prosessual əsasların olması daxildir. Əgər apellyasiyanın mümkünlüyü üçün əsaslar yoxdursa, o, qəbul olunmamış hesab edilə bilər.

Apellyasiya icraatına dair məsələ Konstitusiya Məhkəməsi Plenumunun dəfələrlə müzakirə predmeti olmuş, 20 may 2011-ci il tarixində isə apellyasiya baxışının hədləri ilə bağlı "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372-ci maddəsinin apellyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələrinin tələbləri baxımından şərh edilməsinə dair" Qərar qəbul edilmişdir. Həmin Qərarda qeyd edilmişdir ki, apellyasiya məhkəməsinin vəzifəsi birinci instansiyada işin mahiyyətinə aid olmayan hallardan təmizlənmiş və apellyasiya şikayətinin həcmində mübahisənin predmetinə baxılmasından ibarətdir. Qanunvericiliyin tələblərinə görə apellyasiya məhkə-

məsi tam hüquqlu məhkəmə kimi, işdə olan və əlavə təqdim olunmuş sübutlar əsasında mahiyyəti üzrə işə baxır. Apellyasiya məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual normalara riayət etməsini yoxlamaqla, Mülki Prosessual Məcəllənin 384-cü maddəsində göstərilən qərarlardan birini qəbul edir.

Eyni zamanda, qanunverici, Mülki Prosessual Məcəllənin 403-cü maddəsində apellyasiya məhkəməsinin qətnaməsi və ya qərardadı ilə razı olmayan şəxslərin kassasiya şikayəti (təqdimat və ya protest) vermək hüququnu müəyyən etmişdir. Bu şikayətin müəyyən olunmuş qaydada və müddətlərdə verilməsi kassasiya instansiyası məhkəməsinə həmin qərarların yoxlanılması üçün kassasiya icraatının başlanılmasına əsas verir.

Mülki Prosessual Məcəllənin 357.2-ci maddəsindən fərqli olaraq, Məcəllənin 403.2-ci maddəsi apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş qətnamələrindən və qərardadlarından maraqlı şəxslərin şikayət verməsinin xüsusi prosedurunu tənzimləyir.

Məcəllənin 403.2-ci maddəsində müəyyən edilmiş bu prosedur kassasiya icraatının xüsusi mahiyyətindən və onun həll edə biləcəyi məsələlərin dairəsindən irəli gəlir. Belə ki, kassasiya icraatının bilavasitə vəzifəsi şikayət və ya protest verilmiş apellyasiya məhkəməsinin qətnamə və ya qərardadının qanuniliyinin yoxlanılmasıdır. Kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən yalnız maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır (Mülki Prosessual Məcəllənin 416-cı maddəsi).

Kassasiya məhkəməsi sübut və faktlara yenidən qiymət vermədən işin hallarını müəyyən olunmuş kimi qəbul edərək, apellyasiya məhkəməsinin qərarının mahiyyəti üzrə düzgün olub-olmamasını yoxlamır, onu yalnız məhkəmə tərəfindən qanunun tələblərinə riayət olunub-olunmaması maraqlandırır, çünki həmin məhkəmənin fəaliyyətinin fundamental prinsipinə görə, "kassasiya məhkəməsi işi deyil, qərarı mühakimə edir" (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair" 2019-cu il 18 mart tarixli Qərarı).

Bu baxımdan qanunverici kassasiya instansiyası məhkəməsinin statusundan və ona verilmiş səlahiyyətlərin xarakterindən çıxış edərək kassasiya şikayətlərinin tərtib olunması və verilməsinə münasibətdə daha sərt qaydalar müəyyən etmiş və bu məhkəmənin baxdığı işlərin dairəsini, işə baxılması hədlərini və yeni şəxslərin işə cəlb edilməsi imkanını məhdudlaşdırmışdır.

Lakin göstərilənlərlə yanaşı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, qanunvericinin maraqlarına toxunan şəxslərin şikayəti ilə kassasiya icraatı başlanmasının fərqli şərtlərini müəyyən etməsi barədə mövqeyi başa düşülən olsa da, bu kateqoriyadan olan şəxslərin hüquqlarının həyata keçirilməsi üçün mümkünlük (qəbuledilənlik) şərtlərinin və qaydaların müəyyən olunması hüquqi müəyyənlik prinsipinin, eləcə də qanunların aydın və birmənalı olması şərtinin səmərəliliyinə xidmət etmiş olar.

Belə ki, Konstitusiya Məhkəməsi Plenumunun bir çox qərarlarında dəfələrlə istinad etdiyi hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir və hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu, öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquq tətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir. Bunun əksi, yəni hüquq normasının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla, hər bir normativ hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxara bilər.

Ali Məhkəmə tərəfindən Konstitusiya Məhkəməsinin Plenumuna təqdim edilmiş yazılı mülahizədə qeyd olunmuşdur ki, formalaşdırılmış təcrübəyə görə, işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müvafiq müraciətləri daxil olduqda Ali Məhkəmənin sədri işi öyrənilməsi

üçün hakimlərdən birinə təqdim edir. Hakim tərəfindən iş öyrənilərək müvafiq kollegiyada bütün hakimlərin iştirakı ilə müzakirə edildikdən sonra həmin müraciətin təmin olunmaması barədə qərardad və ya işə kassasiya qaydasında baxılması barədə təqdimat qəbul edilir.

Nəzərə alınmalıdır ki, təcrübədə qeyd edilən müraciətlərə baxılması üçün müəyyən qayda formalaşdırılmış olsa da, qanunvericilikdə onlara baxılma qaydası nəzərdə tutulmamışdır. Qanunverici Mülki Prosessual Məcəllədə bu kateqoriyadan olan şəxslərdən fərqli olaraq, işdə iştirak edən şəxslər tərəfindən verilmiş kassasiya şikayətinin icraata qəbul edilməsi ilə bağlı qaydaları kifayət qədər aydın müəyyən edərək hüquqi müəyyənlik prinsipini təmin etmişdir. Mülki Prosessual Məcəllənin 411-ci maddəsinə uyğun olaraq, qanunun tələblərinə əməl edilməklə verilmiş kassasiya şikayəti kassasiya instansiyası məhkəməsi hakiminin qərardadı ilə icraata qəbul edilir. Göründüyü kimi, işdə iştirak edən şəxslər tərəfindən verilmiş şikayətin icraata qəbul edilib-edilməməsi məsələsi konkret səlahiyyətli şəxs tərəfindən həll edilsə də, həmin şəxsin (hakimin) iradəsindən asılı edilməmiş və qanunvericilikdə nəzərdə tutulmuş tələblərə uyğun verilmiş şikayətin icraata qəbul edilməli olduğu müəyyən edilmişdir.

O da qeyd olunmalıdır ki, Mülki Prosessual Məcəllənin 418.4.6-cı maddəsinə əsasən, apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadının şikayətin dəlillərindən asılı olmayaraq ləğv edilməsi əsaslarından biri də məhz məhkəmənin işdə iştirak etməyə cəlb edilməmiş şəxslərin hüquq və vəzifələrinə dair onların hüquqlarının pozulmasına səbəb olan qətnamə və ya qərardad qəbul etməsidir.

Göstərilənlər onu deməyə əsas verir ki, qanunvericinin bu kateqoriyadan olan şəxslərin kassasiya instansiyası məhkəməsinə şikayət vermələri üçün fərqli qaydalar müəyyən etməsi həmin şəxslərin məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdırmır, bu qayda məhkəmənin spesifik xüsusiyyətlərindən, səlahiyyət dairəsinin məhdud olmasından irəli gəlir. Qəbul edilmiş məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin hüquqlarının pozulması faktı isə məhkəməyə əlçatanlığın və yuxarıda sadalanan digər dəyərlərin təmin edilməsi baxımından təqdimat verilməsi üçün tutarlı əsas kimi çıxış etməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu N.Səlimovun şikayəti üzrə 2020-ci il 20 may tarixli Qərarında göstərmişdir ki, işdə iştirak etməyə cəlb olunmayan, barəsində hüquq və azadlıqlarını pozan və yaxud üzərinə əlavə öhdəliklər qoyan qərar çıxarılmış şəxs, hər bir halda pozulmuş hüquqlarının bərpası üçün daha səmərəli vasitələrlə təmin olunmalı və həmin şəxslər qanunvericiliyin tələblərinə əməl etməklə qanuni qüvvəyə minmiş məhkəmə aktlarından şikayət vermək hüququna malik olmalıdırlar.

İnzibati məhkəmə icraatında oxşar məsələ üzrə hüquqi mövqeyini əks etdirən Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair" 2017-ci il 12 aprel tarixli Qərarında göstərmişdir ki, hüquqi müəyyənliyin mühüm tərkib hissəsi olan məhkəmə qərarlarının stabilliyi prinsipinin qorunması məqsədilə maraqlı şəxsin üçüncü şəxs qismində işə cəlb edilməsi üçün aşağıdakılara xüsusi diqqət yetirilməlidir:

- qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə inzibati məhkəmə icraatına cəlb olunmamış şəxsin hüquqlarının və qanunla qorunan maraqlarının əhəmiyyətli dərəcədə pozulub-pozulmamasına;

- inzibati məhkəmə icraatına cəlb olunmamış şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu vaxtın müəyyən edilməsinə.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd etməyi zəruri hesab edir ki, işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslər tərəfindən kassasiya instansiyası məhkəməsinə şikayət verilməsi, həmin şikayətin (müraciətin) icraata qəbul edilməsi və ona baxılması, yaxud imtina edilməsi qaydalarının qanunverici tərəfindən təkmilləşdirilməsi, həmin qaydaların birmənalı və əlçatan olmasına, nəticədə isə hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə və bu şəxslərin Konstitusiyadan irəli gələn hüquqlarına xələl gətirilməsinin qarşısının alınmasına xidmət etmiş olar.

Beləliklə Konstitusiya Məhkəməsinin Plenumu mövcud qanunvericilik normalarından

çıxış edərək qeyd edir ki, işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin Konstitusiya ilə nəzərdə tutulmuş təminatlarına xələl gətirilməsinin qarşısını almaq məqsədilə həmin şəxslərin hüquqları pozulduğu təqdirdə Ali Məhkəmənin sədri Mülki Prosessual Məcəllənin 403.2-ci maddəsinə uyğun olaraq verilmiş müraciətə əsasən işə kassasiya qaydasında baxılması üçün təqdimat verməkdə haqlıdır.

Göstərilənlərlə yanaşı qeyd olunmalıdır ki, işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin kassasiya şikayətləri üzrə təqdimatın verilməsindən imtina edilməsi həmin şəxsləri öz hüquq və azadlıqlarını müdafiə etmək üçün məhkəməyə müraciət etmək imkanından məhrum etmir. Bu hüquq Konstitusiya ilə yanaşı, həmçinin Mülki Prosessual Məcəllənin məhkəmə aktlarının məcburiliyi adlanan 15.4-cü maddəsindən irəli gəlir. Həmin maddəyə görə, məhkəmə aktları maraqlı şəxslərin mənafelərinə toxunduqda bu aktların məcburiliyi işdə iştirak etməyən maraqlı şəxslərin öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün məhkəməyə müraciət etmələri imkanını istisna etmir. Eləcə də Konstitusiya Məhkəməsi Plenumunun qanuni qüvvəyə minmiş məhkəmə aktlarının preyudisiallığı ilə bağlı formalaşdırdığı hüquqi mövqeyə görə, preyudisiallıq institutu yalnız işdə iştirak edən şəxslərə aid olmaqla, onlar tərəfindən qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktların başqa məhkəmə prosesində mübahisələndirilməsini istisna edir. Sonrakı işdə iştirak edən şəxslərdən biri artıq qanuni qüvvəyə minmiş qətnamənin çıxarıldığı iş üzrə işdə iştirak edən şəxs olmamışdırsa, bu zaman həmin qətnamənin müəyyən etdiyi faktlar onun üçün preyudisial əhəmiyyətə malik deyildir və o, belə faktların məhkəmə qaydasında sübut edilməsini tələb edə bilər ("Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair" 2016-cı il 23 fevral tarixli və G.Əhmədovanın şikayəti üzrə 2019-cu il 24 iyul tarixli Qərarlar).

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin hüquqları əhəmiyyətli dərəcədə pozulduğu halda onların hüquqlarının həmin məhkəmə prosesləri çərçivəsində bərpa edilməsi, preyudisiya institutunun əsas funksiyası olan eyni faktiki hallar arasında qarşılıqlı əlaqənin və məhkəmə qərarlarının stabilliyini təmin edər, bir-birini təkzib edən nəticələri olan məhkəmə aktlarının mövcudluğunun qarşısını alar.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- Mülki Prosessual Məcəllənin 403.2-ci maddəsi xüsusi prosedur qaydalarını müəyyən edərək işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin statusunu və kassasiya instansiyası məhkəməsinin səlahiyyətlərini nəzərə alaraq göstərilən şəxslərin məhkəməyə müraciət etmək hüququnun təmin edilmə vasitəsi kimi çıxış edir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsi xüsusi prosedur qaydalarını müəyyən edərək işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin statusunu və kassasiya instansiyası məhkəməsinin səlahiyyətlərini nəzərə alaraq göstərilən şəxslərin məhkəməyə müraciət etmək hüququnun təmin edilmə vasitəsi kimi çıxış edir.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 24 iyul 2020-ci il*

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1860 Tiraj:1100 ədəd